Günəş Şərqdən doğur!

№ 53 (5334), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 30 mart 2021-ci il (çərşənbə axşamı)



## Şəxsiyyət vəsiqələri artıq qüvvədədir

Türkiyəyə səfərlə bağlı şərtlər açıqlandı (Səh.2)

**Günün içindən...**



### Bakıda mühüm görüş gerçəkləşdi

Pakistan Hərbi Hava Qüvvələrinin nümayəndə heyəti Azərbaycanda səfərdədir

Dünən Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Azərbaycanda işgüzar səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələri komandanının müavini hava marşalı Aamir Masudun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

(səh.2)

### Azərbaycan və Türkiyə XİN başçılarının görüşü olub



Nazirlər bölgədəki vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar (səh.4)

# Vaksin vurduranlara şad xəbər verildi



## "SMS icazə" və digər hərəkət məhdudiyyətləri tətbiq olunmaya bilər

**Sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunarsa, vaksinləşmə prosesinin hər iki mərhələsini başa çatdırmış şəxslərə güzəştlər tətbiq olunacağı gözlənilir.**

Vaksinləşmə prosesinin hər iki mərhələsini yekunlaşdıranlara "SMS icazə" və digər hərəkət məhdudiyyətləri tətbiq olunmaya bilər.

(səh.4)

# Türkiyə modelinə keçirik



## Peşəkar zabitlərin irəli çəkilməsi vacibdir

(səh.6)

### Tam nəzarətdə saxlanacaq

"YAŞAT" Fondu daha 27 qazini müalicə üçün Türkiyəyə göndərib

(səh.8)

### Cümşüd Nuriyev Şeyxə təşəkkür etdi

"Onun Mübariz Mənsimovla bağlı Ərdoğana müraciət ünvanlaması mühüm təşəbbüsdür"

(səh.5)

### "Prioritetimiz dəyişməməlidir"

Pənah Hüseyn: "Əsas məqsədimiz oradakı terrorçu rejimin ləğv olunmasıdır"

(səh.6)

### Vaxt daralır

Həcc ziyarətinin baş tutmaması ehtimalı böyükdür

(səh.14)

# Bakıda mühüm görüş gerçəkləşdi

**Pakistan Hərbi Hava Qüvvələrinin nümayəndə heyəti Azərbaycanda səfərdədir**



**Dünən Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Azərbaycanda işgüzar səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələri komandanının müavini hava marşalı Aamir Masudun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyindən “Şərq”ə verilən məlumata görə, əvvəlcə Pakistanın nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarları üzərinə əklil və gül dəstələri qoyub, xatirələrini ehtiramla anıb.

Görüşdə Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Pakistanlı marşal Vətən müharibəsində qazanılan qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Tərəflər Azərbaycan və Pakistan hərbi hava qüvvələri arasında hərbi, hərbi təhsil və hərbi-texniki əməkdaşlığının perspektivlərini, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.



## Azərbaycan və Ermənistan XİN başçılarının görüşü hələ planlaşdırılmayıb

**Moskvada keçiriləcək MDB Xarici İşlər Nazirləri Şurası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü planlaşdırılmır.**

”Report” TASS-a istinadən xəbər verir ki, bu barədə Ermənistan xarici işlər naziri Ara Ayvazyan dünən parlamentin xarici əlaqələr üzrə daimi komissiyasının iclasında bildirib.

”Aprelin 1-də MDB-yə üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak etmək üçün Moskvaya yola düşürəm. Bu ana üçtərəfli və ya ikitərəfli (Azərbaycan XİN başçısı ilə) görüşün keçirilməsi nəzərdə tutulmayıb. Təbii ki, iclasda müxtəlif tərəfdaşlarla görüşlər olacaq”, - o deyib.

## Ərdoğan Nazirlər Kabinetinin iclasında xəbər verdi

### Türkiyədə Ramazan ayında həftə sonu komendant saatı tətbiq ediləcək



**Türkiyədə Ramazan ayında həftə sonu ölkə üzrə komendant saatı tətbiq ediləcək.**

Trend-in məlumatına görə, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra keçirdiyi mətbuat konfransında deyib.

R.T.Ərdoğan əlavə edib ki, Ramazan ayında bütün ölkədə restoran və kafelər kimi iaşə obyektlərində yalnız qida çatdırılması xidməti fəaliyyət göstərəcək.

Türkiyə prezidenti, həmçinin hər gün axşam saat 21:00-dan səhər 05:00-a qədər komendant saatının ölkə daxilində davam etdiyini bildirib.

Ölkə başçısı qeyd edib ki, qırmızı kateqoriyaya daxil olan vilayətlərin sayı 58 şəhərə çatıb, bu da ölkə əhalisinin 80 faizini təşkil edir.

## Nazir: “Məktəblərdə şagird davamiyyəti 80 faizə qədərdir”



**”Bu gün ümumi təhsil müəssisələrinin 98.4 faizində tədris ənənəvi üsul ilə təşkil edildi”.**

APA-nın xəvbərinə görə, bunu təhsil naziri Emin Əmrullayev ”Facebook” səhifəsində qeyd edib.

*O bildirib ki, məktəblərdə şagird davamiyyəti 80 faizə qədərdir:* ”Bu günədək yaşı 50-dən yuxarı olan müəllim və texniki heyətin 50 faizdən çoxu peyvənd olunub və proses davam edir. Təhsilin ənənəvi formada davamlılığını qorumağımız üçün şəxsi gigiyena qaydalarına riayət etməyimiz ən vacib amildir”.

# Şəxsiyyət vəsiqələri artıq qüvvədədir

## Türkiyəyə səfərlə bağlı şərtlər açıqlandı



**Türkiyənin Azərbaycandkı səfirliyi aprelin 1-dən etibarən Türkiyə və Azərbaycan arasında şəxsiyyət vəsiqəsi ilə səyahətlə bağlı məqamları açıqlayıb.**

Bu barədə səfirliyin rəsmi ”Facebook” səhifəsində məlumat verilib.

Bildirilib ki, 10 dekabr 2020-ci il tarixində Bakıda imzalanan Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında şəxsiyyət vəsiqəsi ilə səyahət protokolunun daxili təsdiq prosesi hər iki ölkə tərəfindən başa çatdırılıb və məlum protokol 1 aprel 2021-ci il tarixindən etibarən qüvvəyə minəcək.

Bu protokolun qüvvəyə minməsi ilə iki ölkə vətəndaşları yeni nəsil şəxsiyyət vəsiqəsi ilə digərinin ölkəsinə 90 gün müddətlik vizasız turistik səyahət edə biləcək.

”Şəxsiyyət vəsiqəsi ilə səyahət zamanı Azərbaycan vətəndaşlarının Türkiyəyə girişində, Türkiyə vətəndaşları isə Türkiyəni tərk edərkən onlara iki dildə ”Giriş-Çıxış Forması” veriləcək ki, bu Fomada giriş-çıxış ştampları qeyd olunacaq.

Hər iki ölkə vətəndaşları həmin ”Giriş -Çıxış Forması”nı Türkiyədə və Azərbaycanda olduqları müddətdə özləri ilə gəzdirməli və giriş-çıxış zamanı sərhəddə müvafiq səlahiyyətlilərə şəxsiyyət vəsiqəsi ilə birgə təqdim etməlidir”, səfirlik qeyd edib.

Səfirlik bildirib ki, Azərbaycana yeni nəsil şəxsiyyət vəsiqəsi ilə səyahət edən Türkiyə vətəndaşları şəxsiyyət vəsiqələrini itirdiyi təqdirdə geri qayıtmaq üçün lazım olan müvəqqəti pasporta müraciət edərkən fotoşəkil və şəxsiyyət vəsiqəsinin nömrəsi olan başqa bir sənəd təqdim etməlidir.

”Yeni nəsil şəxsiyyət vəsiqəsindən səyahət sənədi olaraq yalnız Türkiyə ilə Azərbaycan arasında birbaşa səyahətlərdə istifadə etmək mümkündür. Üçüncü ölkələrdən Türkiyəyə və ya Azərbaycana gələrkən pasport istifadəsi məcburidir.

Yaşayış icazəsi müraciəti zamanı yeni nəsil şəxsiyyət vəsiqəsindən istifadə edilə bilməz. Türkiyədə və ya Azərbaycanda 90 gündən çox qalmaq istəyən vətəndaşlar qalmaq istədikləri müddətdən 60 gün daha çox etibarlılıq müddəti olan pasportlarla qalmaq icazəsi üçün müraciət edə bilərlər.

Azərbaycana daxil olan bütün xarici vətəndaşlar bu ölkədə on beş gündən çox qalmaq niyyətində olduqları təqdirdə, Dövlət Miqrasiya Xidmətinə (https://eservice.migration.gov.az/) ünvan barədə məlumat verməlidir. Azərbaycanda 15 gündən çox qalacaq Türkiyə vətəndaşları da bu tələbi vaxtında yerinə yetirməlidir.

Səfirlik açıqlamasında vurğulayıb ki, COVID-19 epidemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində Azərbaycanda xüsusi karantin rejiminin müddəti 1 iyun 2021-ci ilə qədər uzadılıb. Xüsusi karantin rejiminin qüvvədə olduğu dövrdə yalnız Azərbaycanda yaşamaq üçün icazəsi olan və ya yaxın qohumu (valideyn, arvad, övladı) Azərbaycan vətəndaşı olan xarici vətəndaşların Azərbaycana girişinə icazə verilir. Bu sahəyə daxil olmayan xarici vətəndaşlar Azərbaycana gəlməzdən əvvəl Azərbaycan Nazirlər Kabinetindən ölkəyə giriş icazəsi almalıdır.

# Ermənistan Azərbaycana dəymiş ziyanın ödənilməsinə başlayıb



## “Daha məqsədəuyğun olardı ki, dəymiş ziyanın qiymətləndirilməsinə BMT ekspertləri də cəlb olunsun”

### “Bu, beynəlxalq məhkəmə prosesində mövqeyimizi daha da gücləndirər”

Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərərin miqyası olduqca böyükdür. Dəymiş ziyanla bağlı fərqli rəqəmlər olsa da, ümumi məbləğ milyard dollarlarla ölçülür. 30 ilə yaxın işğal altında qalan ərazilərimizdə infrastruktur, evlər, inzibati və sosial binalar Ermənistan tərəfindən tamamilə dağıdılıb və meşələr məhv edilib.

Ümumi zərərin miqdarının dəqiqləşdirilməsi və əvəzində kompensasiyanın ödənməsi isə Qarabağ məsələsinin mühüm aspektlərindən biridir. Məsələyə beynəlxalq hüquqi yanaşma da mövcuddur. Beynəlxalq hüquqa görə, məsuliyyət daşıyan dövlət digər ölkəyə vurmuş olduğu ziyanı tam həcmdə ödəməlidir. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov isə deyib ki, artıq Ermənistan Azərbaycana dəymiş ziyanın ödənilməsinə başlayıb. Deputat bildirib ki, dəymiş ziyanın ödənilməsi ilə bağlı BMT çərçivəsində müəyyən hüquqi səlahiyyətlərimiz var və bununla bağlı müraciətlər ediləcək: ”Üçtərəfli bəyanata əsasən, Ermənistanın işğaldan azad edilmiş ərazilərdən öz qoşunlarını çıxarması dəymiş ziyanın ödənilməsinin bir hissəsidir. Dəymiş ziyanın ödənilməsinin 3 forması var: - dəymiş ziyandan öncə mövcud olan vəziyyətin bərpası, ikinci kompensasiya, üçüncü beynəlxalq hüquqa zidd hərəkət edən dövlətin üzr istəməsi. Artıq Ermənistan bunun birinci formasını həyata keçirib. Beynəlxalq hüquqi müstəvidə bunu edib. Kompensasiya məsələsi ilə bağlı da dövlətimiz lazımi addımları atır”.

**Siyasi şərhçi Fuad Heydər “Şərq”ə bildirib ki, Ermənistan işğal müddətində Azərbaycana vurduğu bütün ziyanı, maddi-mənəvi zərəri qeyd-şərtsiz ödəməlidir. Analitikin sözlərinə görə, düşmən törətdiyi hər cinayətin cəzasını mütləq çəkməlidir:** ”Buna nail olmaq üçün bütün hüquqi vasitələrdən sonadək istifadə edilməlidir. Heç nəyi düşmənə güzəştə getmək olmaz. Uzun müddət işğalda saxladıqları torpaqlarımızın bir qismini döyüşsüz boşaltmaq Ermənistanın qarşısındakı əsas şərt idi. Ancaq ermənilər bunu öz xoşlarına etmədi. 44 günlük müharibədəki ağır məğlubiyyətdən və təslimçi sülhə imza atdıqdan sonra üç rayonumuzu boşaltmağa məcbur qaldılar. Amma hər üç rayonda vəziyyət çox acınacaqlı idi. Şəhər və kəndlər viran qoyulmuş, evlər, obyektlər, hətta ibadət ocaqları, məzarlar belə dağıdılmışdı. Bütün infrastruktur məhv edilmişdi. Əlbəttə, düşmən bunlara görə cavab verməlidir. Torpaqlarımızdan rədd olub getməklə canlarını qurtara bilməzlər”.

*F.Heydər xatırladıb ki, Birinci və İkinci Dünya müharibələrindən sonra dəymiş ziyana görə təzminatların ödənilməsi faktları qeydə alınıb:* ”Körfəz Müharibəsindən sonra İraqdan Küveytə vurduğu ziyanın ödənilməsini tələb edən BMT-nin 687 saylı qətnaməsi qəbul olunub. O zaman BMT Kompensasiya Komissiyası dəymiş ziyanın məbləğini 52,4 milyard dollar müəyyənləşdirib. Həmin vəsaitin isə 48,7 milyard dollarının ödənilməsinə nail olunub. Bu baxımdan, dəymiş ziyanın məbləği hesablanandan sonra Azərbaycan da beynəlxlaq məhkəməyə müraciət edərək işğalçı Ermənistan tərəfindən kompensasiyanın ödənilməsini tələb etmək hüququna malikdir. Daha məqsədəuyğun olardı ki, dəymiş ziyanın qiymətləndirilməsinə BMT ekspertləri də cəlb olunsun. Bu, beynəlxalq məhkəmə prosesində mövqeyimizi daha da gücləndirər”.

**İsmayıl Qocayev**

## “Üçlü platforma” olmalıdır

### Ermənistanla sülh müqaviləsi Türkiyə, Rusiya, İranın imzaları ilə təsdiqlənməlidir



**“Ermənistan ”sülh müqaviləsi” imzalayıb, sərhədləri delimitasiya edib, kommunikasiyaları açıb. Qarabağ probleminin bizim dediyimiz kimi, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində heç bir status vermədən həllinə nail olsaq, bu müqavilə imzalananda hansı dövlətlərin şahidliyi və iştirakı ilə bunu edəcəyik?!”.**

Bunları BAXCP sədrinin müavini, politoloq Azər Qasımov özünün feysbuk hesabında yazıb. O, sözügedən məsələ barədə daha ətraflı ”Şərq”ə danışdı:

”Tutalım, ATƏT-in həmsədrlərini hazırda prosesdən kənarda tutmuşuq. Ancaq Rusiya aktiv fəaliyyətdədir. Belə olan halda Amerika, Fransa qarant ölkə kimi hansı məntiqlə bu müqaviləyə imza atar?

Deyə bilərik ki, heç lazım da deyil. Yaxşı, qalsınlar kənarda. Bu müqaviləyə Rusiya imza atacaq. Uzağı, Türkiyə də iştirak edəcək. Amma Rusiyanın, Ermənistanın imzasına nə qədər inanmaq olar?

Deyək ki, Amerika, Fransa da bunlardan geri qalmır. Onsuz da hamısı erməniپərəstdir. Onda Azərbaycan elə bir beynəlxalq və ya regional platforma, dövlətlərin iştirakı ilə bu müqaviləni imzalamalıdır ki, sonra problem yaratmağa imkan olmasın, buna cəhd edən qarantor ölkələrin təzyiqinə məruz qalacağını bilsin.

Fikrimcə, bu, Türkiyə, Rusiya, İranın imzaları ilə təsdiqlənən ”üçlü platforma” olmalıdır. Həmçinin həmin ölkələr müqaviləni pozan tərəfi cəzalandırmalıdır. İmzasına sahib çıxmayan dövlət isə ”dostluq siyahısı”ndan birdəfəlik çıxarılsın”.

**Kənan**

## Azərbaycan və Türkiyə XİN başçılarının görüşü olub

### Nazirlər bölgədəki vəziyyətlə bağlı fikir mübadiləsi apardılar

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Tacikistana səfəri çərçivəsində türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşü olub.**

XİN-dən verilən məlumata görə, nazirlər bölgədə mövcud olan cari vəziyyət, eləcə də münaqişə sonrası yenidənqurma və bərpa prosesi çərçivəsində Azərbaycan tərəfindən görülən işlər barədə fikir mübadiləsi apardılar.

Tərəflər həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələləri müzakirə edib və aprelin 1-dən Azərbaycan və Türkiyə arasında qarşılıqlı vizadan azadetmə haqqında Bakıda imzalanmış sazişə dəyişikliklər edilməsi haqqında 1 saylı Protokolun qüvvəyə mindiyini və bu tarixdən vətəndaşlarımızın şəxsiyyət vəsiqəsini sərhədkeçmə sənədi kimi istifadə edə biləcəklərini məmnunluqla qeyd ediblər.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə edilib.

# Rusiyanın tezisləri o qədər də həlledici deyil”

## “Paşinyan növbədənkənar seçkilərdə yüz faiz qalib gələcək”

### “Çünki həm tərəfdarları kifayət qədərdir, həm də daxili və regional vəziyyət onun xeyrinədir”



Ermənistanın Baş naziri Nikol Paşinyan ölkənin Armavir bölgəsinin sakinləri ilə görüşündə aprel ayında erkən parlament seçkiləri üçün rəsmi olaraq istefa verəcəyini söyləyib. Paşinyan görüşdə belə deyib: "Bəli, yaxın gələcəkdə, aprel ayında, erkən seçkilərin baş tutması üçün istefa verəcəm, amma bu mənim getməyim deyil. Bu müddət ərzində baş nazir vəzifəsini icra edəcəyəm".

Qeyd edək ki, Ermənistan qanunlarına görə, parlament hazırkı hökumət başçısının istefasından sonra onu iki dəfə baş nazir seçməsə, növbədənkənar seçkilər təyin ediləcək. Bu vəziyyətdə Paşinyan baş nazir vəzifəsini davam etdirəcək. Bundan əvvəl isə o, ölkədə növbədənkənar parlament seçkilərinin iyunun 20-də keçiriləcəyini söyləmişdi.

Belə bir şəraitdə Rusiya dövlət başçısı Vladimir Putin milyarder Ara Abyamın timsalında Paşinyana rəqib tapıb.

Abramyan vaxtilə Nikol Paşinyana qarşı mübarizə aparmadığına görə özünü qınayıb.

”Mən Ermənistana gedəcəyəm və növbədənkənar seçkilərdə fəal iştirak edəcəyəm. Mən özümü günahkar sayıram, çünki mübarizə aparmadım, soruşmadım, o kimdir, haradan gəlib?”, - erməni əsilli rusiyalı oliqarx bildirib.

Ara Abramyan deyib ki, tezliklə növbədənkənar seçkilərlə bağlı öz proqramını açıqlayacaq, seçkilərə hansı qüvvə ilə gedəcəyini elan edəcək. Komandasının kimlərdən ibarət olacağını bildirəcək. O, Ermənistanın indi olduqca acınacaqlı vəziyyətdə olduğunu, belə vəziyyətdə seçkilərin keçirilməsinin yersiz olduğunu qeyd edib.

Deməli, Ermənistan baş nazirinin siyasi taleyi sual altındadır. Hətta, ola bilsin, sualın yanında nida da var...

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli Paşinyanın siyasi taleyinə dair fikirlərini ”Şərq”lə bölüşdü:** ”Bu barədə danışmaq üçün onun fəaliyyətinə nəzər salmaq lazımdır. Baş nazirin Azərbaycanla loyal münasibətlər cəhdi, Türkiyə ilə sərhədləri bərpa etmək istəyi, Zəngəzurla dəhlizin açılmasına dair bəyanatları və rəqiblərinə nisbətən reytinqinin yüksək olması onun avantajıdır. Rusiyanın tezisləri isə o qədər də həlledici deyil. Fikrimcə, Paşinyan növbədənkənar seçkilərdə yüz faiz qalib gələcək. Çünki həm tərəfdarları kifayət qədərdir, həm də daxili və regional vəziyyət onun xeyrinədir”.

**Ə.Əlibəylinin sözlərinə görə, baş nazirə mane olan bir qüvvə yoxdur:** ”Düzdür, o, Rusiya əleyhinə açıqlamalar verib. Üstəgəl, Moskva da zaman-zaman Ermənistan daxilindəki narazı qüvvələri motivasiya edib. Amma bunlar nəticəsiz qaldı. Nəzərə almaq lazımdır ki, rəsmi İrəvan Kreml üçün o qədər də əhəmiyyətli deyil. Odur ki, Paşinyan hakimiyyətini qoruyacaq”.

**Kənan Novruzov**

# Ermənistanın müharibədən sonra bir yolu qalıb

## Ən yaxşısı Bakının yaratdığı yeni reallıqlarla barışmaqdır

Ermənistanın Baş naziri Nikol Paşinyan növbəti dəfə regional kommunikasiyaların blokdan çıxarılmasının vacibliyini vurğulayıb. Paşinyanın sözlərinə görə, nəqliyyat yollarının açılması Ermənistan iqtisadiyyatı və sənayesinin inkişafında vacib rol oynayacaq.



Baş nazir nümunə olaraq mis-filiz mədənçiliyinə işarə edib. Paşinyan Ermənistanın mislə zəngin olduğunu, lakin misəritmə üçün potensialın kommunikasiyasız mümkün olmadığını xatırladıb. O, regional nəqliyyat infrastrukturlarının blokdan çıxarılmasının və dəmir yol xətlərinin açılmasının vacibliyini qeyd edib: "Bəzi qərarlar verməliyik. Mövcud marşrutlardan qarşılıqlı istifadə etməyi bacarmalıyıq. Ümumiyyətlə, Ermənistan bölgəyə başqa bir bucaqdan baxmağa başlamalıdır. Ermənistan ətrafında əlverişli bir mühit yaratmalıyıq".

**"Ümumi gedişat Paşinyanın digər qərbyönlü partiyalarla birlikdə qalib olacağını göstərir"**

**Paşinyanın bəyanatını "Şərq"ə dəyərləndirən siyasi şərhçi Turan Rzayev deyib ki, hazırda Ermənistanda seçkiqabağı kampaniyalara başlanılıb. Analitik bildirib ki, xüsusən, hakim partiyanın və "Daşnaksütyun"un aktivliyi müşahidə olunmaqdadır**: "Hər iki partiyanın şüarlarında ciddi fərqlər var. Daşnaksütyun Partiyası, revanşistlər, ultra-millətçilər xalqı ənənəvi "müharibə" və "qələbə" sindromu ilə yenidən zəhərləməyə çalışır. Lakin Paşinyanın və parlamentdə koalisiya qurmaq istədiyi digər qərbyönlü qüvvələr yeni ideologiya ətrafında birləşməyə səy göstərirlər. Yeni ideologiya isə Ermənistanın xarici bazarlara çıxış imkanı əldə etməsinə və iqtisadi inkişaf dinamikasını artırmağa nail olmaqdır. Paşinyan regionda kommunikasiyaların bərpası ilə ölkəyə investisiya cəlb etmək niyyətindədir. Bu həm də qarşıdan gələn parlament seçkisinə siyasi hazırlıq deməkdir. Baş nazir əvvəlkindən fərqli olaraq bu dəfə xalqa reallaşması mümkün olan vədlər vermək istəyir. Təbii yataqların işlənməsi xarici investisiya ilə yanaşı, həm də işsizliyin qismən aradan qaldırılması deməkdir. Əgər Paşinyan seçkidən qalib çıxarsa, bu dəfə verdiyi vədləri tutacaq".

**T.Rzayev vurğulayıb ki, məhz baş nazirin dövründə Ermənistanın regional layihələrdə, kommunikasiyaların açılması prosesində iştirakı mümkündür:** "Daha doğrusu bu, Ermənistan üçün bir zərurətdir. Yerevan hökuməti üçtərəfli bəyanatın icrasına məcburdur. Düşmən ölkə müharibədən sonra tənəzzülə doğru gedir. Bunun qarşısını almağın yeganə yolu rəsmi Bakının yaratdığı yeni reallıqlarla barışmaqdır. Ermənistanın xarici siyasətini məhz yeni reallıqlar formalaşdıracaq. Prosesi sürətləndirməyin əsas yolu isə parlamentdə üstünlük əldə etməkdir. İqtisadi sabitlik birbaşa ölkədəki siyasi stabillikdən asılıdır. Ümumi gedişat Paşinyanın digər qərbyönlü partiyalarla birlikdə qalib olacağını göstərir".

**Ekspertin fikrincə, Paşinyan eyni zamanda Kremlin təsir dairəsindən çıxmaq istəyir:** "Onu hakimiyyətə gətirən Qərbdəki siyasi güclərdir. Bu isə Moskvanı narazı salan əsas məqamdır. Ona görə də Paşinyan Rusiyanın yanındaymış kimi görünərək məqsədlərinə nail olmağa çalışır. Ən əsası isə erməni ictimaiyyətinin gözündə məğlub rəhbər kimi deyil, seçkidən qalib çıxmış baş nazir kimi qalmaq istəyir".

**İsmayıl Qocayev**

## Vaksin vurduranlara şad xəbər verildi

"SMS icazə" və digər hərəkət məhdudiyyətləri tətbiq olunmaya bilər




**Sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunarsa, vaksinləşmə prosesinin hər iki mərhələsini başa çatdırmış şəxslərə güzəştlər tətbiq olunacağı gözlənilir. Vaksinləşmə prosesinin hər iki mərhələsini yekunlaşdıranlara "SMS icazə" və digər hərəkət məhdudiyyətləri tətbiq olunmaya bilər. Bu barədə APA-ya tibbi mənbələrdən bəlli olub.**

Məlumata görə, koronavirusa yoluxma sayındakı kəskin artımlar yenidən karantin rejiminin sərtləşdirilməsini aktuallaşdırır. Belə vəziyyətdə isə vaksinləşmə prosesinin hər iki mərhələsini həyata keçirənlərə məhdudiyyət tətbiq olunmaması müzakirə edilir.

Qeyd edək ki, Prezidentin köməkçisi Şahmar Mövsümov bir müddət əvvəl vaksinləşmə prosesini tam keçmiş vətəndaşlara güzəştlərin tətbiq edilməsinin müzakirə olunduğunu qeyd etmişdi.

Xatırladaq ki, əvvəlcə Azərbaycanda 50 yaş üzəri şəxslərin vaksinləşmə prosesi başladılıb. Hazırda hökumət 40 yaş üzəri şəxslərin vaksinləşmə prosesindən istifadə edə biləcəyini açıqlayıb.

Vaksinləşmə vətəndaşlar üçün pulsuzdur. Azərbaycan dövləti bu proses üçün Çinin "Sinovac" şirkətinin istehsalı olan 4 milyon ədəd "CoronaVac" vaksinini ölkəyə gətirib.

# Türkiyənin başqa maraqları var

## Ankara israrla Şimali Kiprin müstəqilliyini tələb etmir

Türkiyə ilə Yunanıstan arasındakı Şərqi Aralıq dənizi ilə bağlı gərginlik, Kiprə görə Ankaraya sanksiya tətbiq edilməsi yönündə çağırışlar Şimali Kipr Türk Cümhuriyyətinin rəsmən tanınması məsələsini yenidən gündəmə gətirib. Bəzi ekspertlərin fikrincə, Ankara hökuməti Şimali Kiprin rəsmən tanıdılmasına nail olmaq üçün daha ciddi addımlar atmalıdır.

Bir qisim siyasi şərhçilər isə deyirlər ki, Türk Kiprini tanıyan ilk dövlət Azərbaycan olmalıdır. Onların qənaətincə, əgər əvvəlki dönəmdə Qarabağla bağlı müəyyən narahatlıq mövcud idisə, artıq önümüzdə belə bir əngəl yoxdur. Lakin bəzi analitiklər hesab edirlər ki, məsələ heç də adanın Türkiyənin nəzarətində olan bölgəsinin rəsmi dövlət kimi tanıdılmasına nail olmaq deyil. Ankaranın Kiprlə bağlı məqsədi və əsas tələbi başqadır. Xatırladaq ki, 1959-cu ildə Böyük Britaniya, Türkiyə, Yunanıstan və Kiprdəki yunan və türk cəmiyyətləri arasında Sürix və London müqaviləsi imzalanıb. Müqaviləyə görə adada Kipr Respublikası elan edilib və Kipr xalqlarının vəziyyətini təyin edən Konstitusiya təsdiqlənib. Yunan tərəfini baş yepiskop Makarios, türk tərəfini isə Fazıl Kiçik təmsil edib. Sonrakı illərdə Makarios adanın Yunanıstana birləşməsi üçün ciddi mənada Enozis hərəkatına başlayıb. Bu hərəkat çərçivəsində adadakı türk əhaliyə qarşı xüsusi amansızlıqla soyqırım törədilib. Məhz bundan sonra, yəni 1974-cü ildə rəsmi Türkiyə Silahlı Qüvvələri adaya müdaxilə edərək türklərin qətliamına son verib.



**"Mahiyyəti ondan ibarətdir ki, ada vahid dövlət halında birləşsə belə, bir daha türk əhalinin həyatı üçün hansısa təhlükə və risk meydana gəlməsin"**

**Məsələni "Şərq"ə dəyərləndirən ADP sədri, politoloq Sərdar Cəlaloğlu bildirib ki, Ankara israrlı şəkildə Şimali Kiprin müstəqilliyini tələb etmir.** Partiya rəhbərinin sözlərinə görə, Türkiyənin Kipr siyasətinin mahiyyəti ondan ibarətdir ki, ada vahid dövlət halında birləşsə belə, bir daha türk əhalinin həyatı üçün hansısa təhlükə və risk meydana gəlməsin, onların hüquqları qətiyyən pozulmasın: "Kipr adasında həm yunanların, həm də türklərin maraqlarını ifadə edən vahid hökumətin yaradılması ilkin tələblərdən biridir. Məsələn, Ankara şərt qoyur ki, hökumətdə ya prezident, ya da baş nazir mütləq türklərdən olmalıdır. Türkiyə bu istiqamətdə həm BMT çərçivəsində danışıqlarda iştirak edir, həm də yunanlarla birbaşa müzakirələrə qatılır. Eyni zamanda Şimali Kiprlə adanın cənubu arasında baş tutmuş görüşlərdə aktiv vasitəçi rolunu oynayır. Yəni Kiprin vahid dövlət olması əslində Türkiyənin də maraqlarına xidmət edir. Şübhəsiz, Ankara Şimali Kiprin müstəqil dövlət olmasını istəsəydi, rəsmi Bakı buna mütləq müsbət cavab verərdi. İndiki şəraitdə Azərbaycanın mövqeyi tamamilə doğrudur".

**S.Cəlaloğlu vurğulayıb ki, 1959-cu ildə yaradılmış Kipr dövlətinin tərkibində ayrıca bir dövlət yaranmayıb. Sadəcə, 1974-cü il hadisələrindən, yəni türklərə qarşı soyqırım törədiləndən sonra ada iki hissəyə bölünüb:** "Bunları bir-biri ilə qarışdırmaq olmaz. Türkiyə burada milli müqəddəratı həll etmək prinsipindən çıxış etmir. Ankara hökuməti ilk növbədə tələb edir ki, adadakı türklərin həyatına, hüquqlarına təminat verən siyasi rejim qurulsun və vahid dövlət formalaşsın. Məlumdur ki, Cənubi Kipr BMT tərəfindən rəsmi dövlət kimi tanınıb.

Belə halda Kiprin şimalını müstəqil ölkə kimi tanımalı olan ilk subyekt məhz Cənubi Kipr dövlətidir. Türkiyə isə hərbi himayədar və türklərin hüquqlarını qoruyan güclü tərəf kimi çıxış edir. Yəni Kipr məsələsi bizim anladığımız formada mütləq tanınma tələb edən statuslardan tamamilə fərqlidir".

**İsmayıl Qocayev**

# Cümşüd Nuriyev Şeyxə təşəkkür etdi

## “Onun Mübariz Mənsimovla bağlı Ərdoğana müraciət ünvanlaması mühüm təşəbbüsdür”

Azərbaycanlı iş adamı Mübariz Mənsimovun şərti azadlığa çıxması ilə bağlı maraqlı fakt üzə çıxıb. Tanınmış iş adamının ev dustaqlığına buraxılmasında Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadənin rolu olduğu iddia olunur. Şeyx Mübariz Mənsimovla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub yazaraq iş adamının buraxılmasını xahiş edib:



**“Burada haqq-ədalətin bərpa olunması və incidilmiş bir insanın haqqının özünə qaytarılması məsələsi də var idi”**

“Mübariz Mənsimovun atasının ağır xəstə olmasını, anasının ahıl yaşını, öhdəsində azyaşlı uşaqlarının olmasını nəzərə alaraq, Zati-alilərinizin ali mərhəmətinə güvənərək rica edirik ki, Türkiyə ədalət məhkəməsi sürəcində Mübariz Mənsimova mərhəmət nümayiş etdirərək, həbsin ev şəraiti ilə əvəz olunmasına yardımçı olasınız”.

İddiaya görə, bu məktubdan sonra Mübariz Mənsimov azadlığa buraxılıb. Məlumata görə, Şeyxə Ərdoğanın xüsusi rəğbəti var. Məktubu Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr İşei, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri M.Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı Yepiskopu Vladimir Fekete də imzalayıb.

**Şeyxin məlum məsələ ilə bağlı Ərdoğana şəxsən müraciət etməsini ”Şərq”ə dəyərləndirən professor, sabiq millət vəkili Cümşüd Nuriyev deyib ki, gec də olsa ədalət yerini tutdu və bu ədalətin bərpasında Şeyxin rolu danılmazdır.** Professor bir vətəndaş olaraq Şeyxə təşəkkürünü bildirib və belə dini rəhbərlə fəxr etdiyini söyləyib: ”Mübariz Mənsimov xalqımız tərəfindən sevilən, ən nüfuzlu iş adamlarından biridir və uzun müddətdir qardaş Türkiyədə fəaliyyət göstərir. O, çoxsaylı tələbəyə və digər ehtiyac sahibi insanlara yardımlar edir. Mübarizi müasir dövrün ”Hacı Zeynalabdin Tağıyevi” kimi dəyərləndirirlər. Çünki ondan dəfələrlə zəngin olan biznesmenlərimizin 44 günlük müharibədən sonra Azərbaycana hansısa yardım etdiyi haqda heç bir məlumata rast gəlməmişik. Əgər Mübariz Mənsimov həbsdə olmasaydı, ölkəmizə daha çox köməyi dəyərdi. Şeyx cənablarının belə bir addım atması və onu rus provaslav kilsəsi, dağ yəhudiləri, katolik rəhbərlərinin dəstəkləməsi gözəl nümunədir. Həm də Azərbaycanın multikultural dəyərlərinin örnəyi, dünya ölkələrinə birlik mesajıdır. Sosial şəbəkədə ”Şeyxin nüfuzu yoxdur”, ”ciddi işlə məşğul olmur” kimi ittihamlar yaramaz adamların işidir. 1990-cı ilin qanlı 20 yanvar hadisələrində Azərbaycandan dünyaya səsini ucaldan ilk şəxs məhz Şeyxülislam idi”.

**C.Nuriyevin qənaətincə, Şeyx ozamanki cəsarətli davranışından sonra heç bir iş görməsəydi belə, təkcə həmin hadisə ilə tarixə düşərdi:** ”90-cı ildə bunu etmək böyük qəhrəmanlıq tələb edirdi. Din xadimi ilk dəfə SSRİ-yə qarşı açıq üsyan edirdi. Onun Moskvaya, Mixail Qorbaçova göndərdiyi məktub həddindən artıq aqressiv və sərt üslubda qələmə alınmışdı. Zaman-zaman Şeyxə qarşı müşahidə etdiyimiz hücumların arxasında bəzi dövlətlərin maraqları durur. Bir sıra qüvvələr Azərbaycanda çoxsaylı dini təriqətlərin yayılmasına, məzhəblərin ortaya çıxmasına çalışırlar. Şeyx cənabları isə bu cəhdlərin qarşısını alır. Ona görə də amansız hücumlara, əsassız ittihamlara hədəf olur. Şeyx həzrətləri müsəlman dünyasında, ümumən regionda və dünyada böyük nüfuza sahibdir. Ona şər-böhtan atanlar mütləq öz cəzalarını alacaqlar. İş adamı ilə bağlı hörmətli Ərdoğana müraciət ünvanlamaq və onun azadlığına nail olmaq çox mühüm təşəbbüsdür. Çünki burada haqq-ədalətin bərpa olunması və incidilmiş bir insanın haqqının özünə qaytarılması məsələsi də var idi. Azərbaycan vətəndaşı olaraq Mübariz Mənsimovla bağlı qərara görə, Şeyximizə və hörmətli Ərdoğana öz təşəkkürümü bildirirəm. İnanıram ki, tezliklə tanınmış messenatımızın üzərindən bütün ittihamlar qaldırılacaq və günahsız olduğu üzə çıxacaq”.

**İsmayıl Qocayev**

# 1 129 yeni yoluxma faktı qeydə alınıb

## Azərbaycanda son sutkada 22 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 129 yeni yoluxma faktı qeydə alınıb, 349 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 22 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 257 330 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 236 500 nəfər müalicə olunaraq sağalıb, 3 513 nəfər vəfat edib, aktiv xəstə sayı 17317 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 630, ötən müddət ərzində isə ümumilikdə 2 844 674 test aparılıb.

# Maskalardan təkrar istifadə çox təhlükəlidir



**Bəzi maskalardan təkrar istifadə çox təhlükəlidir. Bu barədə TƏBİB-in məlumatında qeyd edilib.**

Bildirilib ki, bir çox qoruyucu maskalar dəfələrlə istifadə üçün yararsız ola bilər: ”Mütəxəssislər bildirir ki, qoruyucu maskaları heç bir başqa antiseptiklə, xlorla və ya spirtlə dezinfeksiya etmək uyğun deyil, çünki bu təmizləmə üsulu təhlükəlidir və nəticə etibarı ilə zərərli buxarla nəfəs almağa səbəb ola bilər.

Bununla yanaşı, parça maskaları istehsal olunduğu materiala uyğun olaraq kifayət qədər tez-tez yumaq lazımdır. Çünki maskalar öz funksiyasını yalnız müəyyən saata qədər yerinə yetirir”.



# Gürcüstan hökuməti quru sərhədlərin açılmasını müzakirə edir

**“Gürcüstan hökuməti quru sərhədlərin açılmasının mümkünlüyünü müzakirə edir”.**

“Report”un yerli bürosu xəbər verir ki, bunu ölkənin iqtisadiyyat və dayanıqlı inkişaf naziri Natia Turnava jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, Gürcüstanda turizmin bərpası üçün, demək olar, əsas məhdudiyyətlər aradan qaldırılıb: ”Aparılan vaksinasiya pandemiyanın üçüncü dalğasının qarşısını almağa imkan verəcək. Hazırda biz quru sərhədlərin hansı şərtlərlə açılması məsələsini müzakirə edirik və bu, maliyyə bazarımızın artmasına müsbət təsir göstərəcək”.

*Qeyd edək ki, Gürcüstan və Azərbaycan arasında quru sərhədlər vasitəsilə sərbəst gediş-gəliş ötən ilin martın 14-dən dayandırılıb. Qonşu ölkə quru sərhədlərdən öz vətəndaşlarını və tam peyəndlənmə kursunu keçən əcnəbiləri qəbul edir.*

# Paşinyan “siyasi taymaut” götürə bildi

## Baş nazirin yeni hədəfi növbədənkənar seçkilər vasitəsilə rəqiblərini böyük ölçüdə neytrallaşdırmaqdır

Ermənistanın Baş naziri Nikol Paşinyan Armavir vilayətində əhali ilə keçirdiyi görüşdə aprel ayında vəzifəsindən istefa verəcəyi barədə məlumat verib. Onun sözlərinə görə, bu, formal bir addım olacaq. Paşinyan əlavə edib ki, bu, növbədənkənar seçkilərin keçirilməsi ilə bağlıdır və seçkilərə qədər isə o, baş nazir vəzifələrini icra edəcək.



**Mövzu ilə bağlı danışan politoloq Nurlan Qələndərli ”Şərq”ə açıqlamasında bildirib ki, vətəndaş itaətsizliyi, müxalifətin etiraz aksiyaları və ordu rəhbərliyi ilə hakimiyyət arasında qarşıdurma fonunda cərəyan edən proseslər Ermənistanda siyasi xaosun dərinləşərək böhran həddinə çatmasını şərtləndirib.** Politoloq qeyd edib ki, rəqiblərinə və bütövlükdə etirazçı mövqeyindən çıxış edənlərə qarşı müxtəlif təzyiq üsullarından, repressiya metodundan istifadə edən Paşinyanın sonuncu manevri növbədənkənar seçkilərin təyin edilməsi oldu: ”Beləliklə, məğlub ölkədə iqtidar bununla xaotik proseslərin və ictimai-siyasi pressinqin fonunda resurslarını səfərbər edə bildi. Nəticədə hakimiyyətinin dayaqlarını möhkəmləndirmək üçün ”siyasi taymaut” götürə bildi. Artıq o, siyasi gündəmi müəyyən qədər dəyişməyə nail olub. Proseslərin məcrasını başqa yönə çevirmək istiqamətində bir neçə addım da irəliləyən Paşinyan iqtidarının yeni hədəfi növbədənkənar seçkilər vasitəsilə rəqiblərini böyük ölçüdə neytrallaşdırmaqdır”.

**N.Qələndərli vurğulayıb ki, aprel ayında istefa verəcəyini və bu addımın formal xarakter daşıdığını bəyan edən Paşinyan daxili siyasi situasiyanı müəyyən qədər öz lehinə çevirə bilib:** ”Müxalifətin ciddi ictimai dəstək ala bilməməsi və siyasi passivliyi Paşinyan hakimiyyətinə seçki öncəsi situasiyanı nəzarətdə saxlamağa imkan verir. Bütövlükdə isə düşünürəm ki, hazırkı iqtidar növbədənkənar seçkilərdən rəqiblərini ”siyasi ofsayd” vəziyyətinə salmaqla qalib tərəf kimi çıxacaq. Amma bununla yanaşı, məğlub Ermənistanda qarşı-qarşıya duran tərəflər arasında ziddiyyətlərin davam edəcəyini, siyasi xaosun dərinləşəcəyini, konfrontasiya hallarının müşahidə olunacağını proqnozlaşdırmaq olar”.

**Aynurə Pənahqızı**

# Tarixçi izah verdi

## “Bunları bilmədən 31 Mart soyqırımına qiymət vermək olmaz”



Bu günlərdə 31 Mart soyqırımının növbəti ildönümü tamam olacaq. 1918-ci il martın 31-dən aprelin 3-dək erməni və rus hərbi birləşmələri Bakı şəhərində və Bakı quberniyasının müxtəlif yerlərində ağır qətliamlar törətdilər. İnsanlığa sığmayan vəhşikliklər etdilər.



Rəsmi mənbələrə əsasən, həmin qırğın nəticəsində 12 min azərbaycanlı öldürülmüş, on minlərlə insan itkin düşmüşdü. Üzərindən bir əsrdən çox vaxt keçməsinə rəğmən, hələ də bu tarixi hadisəni unutmamışıq. Əksinə, hər dəfə dərin kədərlə xatırlayırıq. Əlbəttə, unuda bilmərik. Çünki keçmişinə güllə atanı gələcək topa tutar...

**BDU-nun professoru, tarixçi-alim Nəsiman Yaqublu 31 Mart soyqırımının törədilməsi barədə ”Şərq”ə danışıb:** ”Bu, azərbaycanlılara qarşı törədilən ən böyük qətliamlardan biridir. Və bir neçə səbəbi var. Birincisi, ermənilərin ərazi iddiaları ilə bağlıdır. Belə ki, ”Böyük Ermənistan” xülyasına düşən ermənilər bu ideyalarını əvvəlcə Türkiyədə gerçəkləşdirmək istədilər. Lakin Türkiyə ilə bacara bilmədiklərini anladıqdan sonra Azərbaycan torpaqlarını hədəf seçdilər. Həmin ideyanı irəli sürən ”Daşnaksütyun” partiyası idi. Partiya 1904-cü ildə öz proqram sənədinə belə bir maddə əlavə etdi: ”Biz yalnız Qafqazda, özü də müsəlmanların sıx yaşadığı ərazidə dövlət qura bilərik. Çünki çar hakimiyyəti müsəlmanları deyil, bizi dəstəkləyir”. İkinci səbəb ermənilərin siyasiləşmiş xalq olmasıdır. Onlar ”Daşnaksütyun” ideyaları ilə yaşayıblar və yaşayırlar. Bu gün daxildə sözügedən partiyanın ciddi nüfuzu olmasa da, ermənilərin hər biri mahiyyətcə daşnakdır. Və nəhayət, ruslar həmişə - istər çar, istər sovet, istərsə də federasiya dövründə həmişə erməniləri dəstəkləyiblər. Bu, XIX əsrdən üzü bəri dəyişməz olaraq qalıb. Biz sadaladığım məqamları bilmədən nə 31 Mart, nə 20 Yanvar, nə Xocalı faciəsinin, nə də Qarabağ ətrafında gedən bugünkü problemlərin mahiyyətinə vara bilərik”.

**N.Yaqublu, həmçinin bildirib ki, biz bu hadisələrdən dərs almalıyıq:** ”Bilirsiniz ki, Stepan Şaumyanı Lenin Qafqaza canişin təyi etmişdi. Qətliamı törədənlər isə erməni və rus hərbçiləri idi. Üç günə 15 min azərbaycanlı öldürülmüşdü. İnsanlara çox ağır işgəncələr verilirdi. Xəzər dənizindəki 36-cı Türküstan polku qırğının qarşısının alınmasında mühüm rol oynadı. 1916-cı ildə yaradılan bu alayda bir nəfər də erməni yox idi. Əksinə, müsəlmanlar var idi. Beləliklə, Məhəmməd Əmin Rəsulzadə və silahdaşlarının köməyi ilə ruslar əsl həqiqəti- ermənilərin dinc insanları qətlə yetirdiyini anladılar. Bunun ardınca Rusiya qətliamın törədilməsi barədə ermənilərə ultimatum göndərdi. Nəzərinizə çatdırım ki, mart soyqırımı haqqında ən düzgün qərar 1918-20-ci ildə verilib”.

**Kənan**

## “Prioritetimiz dəyişməməlidir”

### Pənah Hüseyn: “Əsas məqsədimiz oradakı terrorçu rejimin ləğv olunmasıdır”



**Məlum olduğu kimi, bir müddət əvvəl rus dili Qarabağda ”dövlət dili” elan olundu.**

Əlbəttə, bu, məkrli düşmənin növbəti xain planı, daha dəqiq desək, açıq-aydın təxribatdır. Görünür, ”Dəmir yumruğ”un dadı damaqlarında qalıb. ”Burnu əzilən” Ermənistan siyasi hakimiyyəti birdəfəlik ”nokaut” olmaq üçün əlindən gələni edir. Deməli, gücümüzü və kim olduqlarını onlara növbəti dəfə xatırlatmağın vaxtı çatıb...

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bu barədə ”Şərq”ə danışarkən planın mahiyyətini izah etdi:** ”Düşmənlər problemi Ermənistan-Azərbaycan müstəvisindən, Rusiya-Azərbaycan, Rusiya-Türkiyə müstəvisinə daşımaq istəyirlər. Və bu niyyətin davamı da gələ bilər. Çünki onlar hərbi revanşın mümkünsüz olduğunu başa düşüb 1988-ci ildə olduğu kimi rusları ”səhnəyə çıxararaq” onların arxasında gizlənmək və sonradan ”intiqam” almağı arzulayırlar”.

**P. Hüseyn, həmçinin Azərbaycanın məsələyə münasibətindən də söz açdı:** ”Əlbəttə, burada Rusiyanın da müəyyən maraqları var. Yəqin ki, proses daxildəki hansısa siyasi dairələrin layihəsidir. Amma istənilən halda prioritetimiz dəyişməməlidir. Düzdür, məsələyə ciddi yanaşmalıyıq, lakin məncə, bu, həlledici məqam deyil. Bizim əsas məqsədimiz oradakı terrorçu rejimin ləğv olunmasıdır. Bunu bacarsaq, məsələ kökündən həllini tapacaq, daha hansısa təxribat baş verməyəcək”.

**Kənan**



## ABŞ mütəxəssisləri ÜST-ün koronavirusun mənşəyi ilə bağlı hesabatını araşdırır

**”ABŞ mütəxəssisləri Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) koronavirusun mənşəyi ilə bağlı hesabatını araşdırır”.**

APA TASS-a istinadən xəbər verir ki, bunu Ağ Evin mətbuat katibi Cen Psaki bildirib.

”Əlbətdə ki, embarqo altında olan hesabat hazırda ABŞ mütəxəssislərinin əlindədir: Hesabat mütəxəssislərimiz tərəfindən aktiv və sürətli şəkildə araşdırılacaq”, Psaki əlavə edib.

Qeyd edək ki, ÜST Baş katibi Tedros Adanom Qebreyesus bazar ertəsi Cenevrədə təşkil olunmuş mətbuat konfransında bildirib ki, təşkilatın üzv ölkələrinə araşdırma üçün təqdim edilən hesabatın ictimailəşdirilməsinə icazə verilməyib.

Hesabat bir qrup ÜST mütəxəssisinin Çinin Uhan şəhərinə səfəri əsasında hazırlanıb.

”The Wall Street Journal”ının məlumatına görə, Çində səfərdə olan ÜST mütəxəssisləri ”virusun nə vaxt, harada və necə yayılmağa başladığı” sualına qəti cavab verməyib.

# Türkiyə modelinə keçirik

## Peşəkar zabitlərin irəli çəkilməsi vacibdir

Azərbaycan Silahlı Qüvvələrinin keçmiş Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun Dubayda dincəldiyini əks etdirən videogörüntülər hələ də müzakirə olunmaqdadır. Görüntülərin nə zaman çəkildiyi dəqiq məlum olmasa da, hesab edilir ki, bu, Nəcməddin Sadıkovun Baş Qərargah rəisi vəzifəsindən azad edilməsindən sonrakı dövrdür.



Hələlik general bu iddialara reaksiya verməyib. Ümumən, Nəcməddin Sadıkov Azərbaycan generalitetinin müəmmalı və ən çox tənqid olunan simalarından sayılır. Onun Rusiya ilə bağlılığı, Azərbaycan Ordusundakı peşəkar zabitləri bu və ya digər şəkildə sıradan çıxardığı barədə iddialar gündəmdən düşmür. Hətta Nəcməddin Sadıkovu xəyanətdə ittiham edənlər də var. Xatırladaq ki, bundan öncə yayılan xəbərlərdə Nəcməddin Sadıkovun səhhətində problem yarandığı, Moskvada müalicə olunduğu bildirilmişdi. İctimaiyyət nümayəndələri 1993-cü ildən 2020-ci ilin yanvar ayınadək Baş Qərargah rəisi olmuş generalın və yaxın ətrafının cəzalandırılmasını, adı xəyanətdə hallandırılan bütün zabitlərin ordu sıralarından xaric edilməsini tələb edir.

**Müdafiə Nazirliyindəki prosesləri ”Şərq”ə dəyərləndirən ehtiyatda olan zabit, hərbi ekspert Ədalət Verdiyev deyib ki, Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi öz vəzifəsindən çoxdan uzaqlaşdırılıb.** Ekspert bildirib ki, əvvəlcə sabiq Baş Qərargah rəisinin ölkədən kənarda olduğu deyilirdi. Sonra sosial şəbəkələrdə Dubayda istirahətini əks etdirən bəzi görüntülər paylaşıldı və ölkəyə çağırılması ilə bağlı xəbərlər yayıldı: ”Bunun mümkün olduğunu düşünürəm. Baş verən hadisələrdə, o cümlədən kifayət qədər səs-küylü, qalmaqallı olaylarda Nəcməddin Sadıkovun da dindirilməsi, ondan izahat alınması ictimaiyyətin zədələnmiş vicdanının bərpasına yardım etmiş olar. Ordumuzda gələcək islahatlarla bağlı ilk siqnal cənab Prezidentimiz tərəfindən verilib. Vurğulanıb ki, biz Türkiyə modelini seçəcəyik. Bununla bağlı mənim də bir sıra məqalələrim var və orada öz təkliflərimi vermişəm. Düşünürəm ki, Türkiyə modelinin Azərbaycan Ordusunda tətbiqi ümumən zabitlərin karyerasında, daha üstün və peşəkar biliklərə yiyələnməsində, ordumuzun daha üstün vəziyyətə gətirilməsində mühüm rol oynayacaq. Kadr islahatlarına gəldikdə isə Azərbaycan Ordusu qalib ordudur və müharibə kifayət qədər ciddi potensiala malik sərkərdələrimizi, generallarımızı və zabitlərimizi ictimaiyyətə təqdim etdi”.

**“Açar vəzifələrə Vətənin dar günündə onun harayına yetən, ermənilərlə müharibədə canını, qanını əsirgəməyən hərbçilərimiz təyin olunmalıdır”**

**Ə.Verdiyev vurğulayıb ki, gələcək islahatlarda Birinci Qarabağ müharibəsində, aprel döyüşlərində, 44 günlük Vətən savaşında iştirak etmiş peşəkar zabitlərimizin yüksək vəzifələrə təyin olunması çox yaxşı olar:** ”Bunun ilk sıqnallarını görürük. Hər iki müharibədə uğurla iştirak edən general-mayor M.Rzayevin birlik komandiri təyin edilməsi bunu əyani nümayiş etdirir. Cəmiyyəti narahat edən məqamlardan biri bəzi zabitlərin birinci Qarabağ müharibəsində Azərbaycana qayıtmaması, Rusiyada hərbi xidmətlərini davam etdirməsi, sonradan isə ordumuzda yüksək vəzifələrdə təmsil olunmalarıdır. Əlbəttə, bu məqam hərbçi kimi məni də çox narahat edir. Bu cür halların aradan qaldırılması üçün kadr islahatları zəruridir. Hesab edirəm ki, mühüm əhəmiyyət kəsb edən açar vəzifələrə Vətənin dar günündə onun harayına yetən, ermənilərlə müharibədə canını, qanını əsirgəməyən hərbçilərimiz təyin olunmalıdır”.

**İsmayıl Qocayev**

# “Ermənistan tarixinin ən çətin dövrünü yaşayır”

## Türk jurnalist: “Hər nə qədər müharibə çağırışları etsələr də, bu, indiki mərhələdə çox çətindir”



**Prezident, Ali Baş Komandan İlham Əliyev Novruz bayramını ailəsi ilə birlikdə Şuşada qeyd etməklə təkcə 30 illik arzumuzu reallaşdırmadı, həm də dostlarımızı sevindirdi. Əlbəttə, ilk sevinənlərdən biri məhz qardaş Türkiyədir. Rəsmi Ankara müharibənin ilk günündən etibarən olduğu kimi indi - diplomatik cəbhədə də yanımızdadır.**

**İki qardaş dövlət, iki qardaş xalq qələbə sevincini birlikdə yaşayırlar. Türkiyəli jurnalist, iqtisadçı, ”Turcomoney” jurnalının direktoru Kazım Kılıçın ”Şərq”ə müsahibəsində dediyi kimi, bizim buna haqqımız çatır:**

**- Azərbaycanın tarixi zəfərini necə qiymətləndirirsiniz?**

- Qardaş Azərbaycanın tarixi qələbəsi hər cəhətdən təqdirəlayiqdir. Həm haqsızlıqlara, qətliamlara, işğallara qarşı olan bir insan, həm də türk olaraq özümü xoşbəxt sayıram. Çünki Qarabağ Azərbaycan torpaqlarıdır. O vaxt Ermənistan müstəqilliyini yenicə elan etmiş, iqtisadi, siyasi problemləri həll etmək üçün çalışan Azərbaycanın torpaqlarını Rusiyanın dəstəyi ilə işğal etdi. Bu təcavüzdən sonra isə insanlıq tarixinə qara səhifə kimi düşən Xocalı qətliamı törədildi. Həmin faciə zamanı 600-dən çox azərbaycanlı qətlə yetirildi. Bu, Azərbaycan xalqı və Türkiyə üçün sağalmaz yara idi. Qəribədir, Qarabağı işğal etməsi ilə kifayətlənməyən düşmən keçən il də Tovuza hücum etdi. Amma indi vəziyyət çox fərqli idi. İndi ermənilərin qarşısında 1990-cı illərə nisbətən xeyli inkişaf etmiş, müdafiə sənayesini və hərbi gücünü artırmış bir Azərbaycan vardı. Ermənistan xalqında isə sosial narazılıqlar artmaqda idi. Qarabağı işğal edəndə Rusiyanın dəstəyini alan Ermənistan bu dəfə istədiyi köməyi görmədi. Ümumiyyətlə, ermənilərin sizin tarixi torpaqlarınızı zəbt etdiyi artıq bütün dünya ictimaiyyətinə məlumdur. Elə ona görə də ermənilərin Tovuz təxribatı ürəklərində qaldı. Bu dəfə ”sərt qayaya dəydilər”. Azərbaycan Ordusu fürsətdən istifadə edərək əks-hücuma keçdi və torpaqlarının böyük bir hissəsini ”təmizlədi”. Beləliklə, bayaq dediyim yara tədricən sağalmağa başladı. Bu münasibətlə Azərbaycanı təbrik edirəm.

**- Bu dövrdə jurnalistlər necə davranmalıdırlar? Xəbərçilik, yoxsa vətəndaşlıq mövqeyi ön plana çıxmalıdır?**

- Jurnalistika xalq naminə idarəetməni sorğulayan, səhvləri, çatışmazlıqları ortaya qoyan, həqiqətlərin axtarışında olan peşədir. Jurnalistika obyektiv, doğru xəbərçilik deməkdir. Deməli, biz həqiqətləri yazmalı, ədalətin, hüququn tərəfində olmalıyıq. İslamda da göstərilir ki, haqsızlığı, zülmü kim törədirsə törətsin, günahsızın tərəfində olmaq lazımdır. İkinci bir tərəfdən, mətbuat nümayəndələri də insandırlar. Ona görə mən məsələyə ”Əvvəl insanam, sonra jurnalistəm” prizmasından yanaşılmasının tərəfdarıyam. Bu nöqteyi-nəzərdən də haqlı olan məhz Azərbaycandır. Zülm edən, bir ölkənin torpaqlarına göz dikən, qətliam törədən isə Ermənistandır. Deməyim odur ki, jurnalistlər hər şeydən əvvəl insan kimi haqlının, yəni rəsmi Bakının yanında olmalıdırlar.

**“İstər daxili vəziyyət, iqtisadi böhran, istərsə də beynəlxalq münasibətlər sistemi Ermənistana hansısa "şıltaqlıq" üçün imkan vermir"**

**- Düşmən dezinformasiyalarının qarşısını necə almaq lazımdır?**

- Kommunikasiya, sosial media dövründə yaşayırıq. Dezinformasiyaların qarşısını almaqdan ötrü bütün imkanlardan istifadə edilməlidir. Beynəlxalq media quruluşlarının rəhbərləri hadisə yerinə dəvət olunmalıdır. Bu zaman onlar saxta xəbərə yox, gördüklərinə inanacaqlar. Həqiqət günəş kimidir, üstünü örtmək olmaz. Gərək biz də günəş kimi olaq. Dürüstlükdən, ədalətdən ayrı qalmayaq. Və dediyim kimi, gerçəkləri dünya ictimaiyyətinə çatdırmaq naminə bütün imkanlardan yararlanmalıyıq. Yalan məlumatlara dərhal cavab verilməlidir.

**- Müharibə zamanı türk jurnalistlər Azərbaycanda oldular, haqq səsimizi dünyaya çatdırdılar. Bunun əhəmiyyətini bir də sizdən eşidək.**

- Azərbaycanla qardaşıq. Qardaşlıq isə belə çətin vaxtda birlikdə olmağı tələb edir. Qardaşlıq çətin vaxtlarda birlikdə ağlamağı, birlikdə kədərlənməyi, dərdləri paylaşmağı, gözəl zamanlarda isə xoşbəxtlikləri, uğurları paylaşmağı tələb edir. Odur ki, belə bir uğur üçün mən də Azərbaycan xalqının, qardaşlarımızın xoşbəxtliyini paylaşıram.

**- Ermənistandakı müxalifət ”revanş almaqda” iddialıdır. Hərbi əməliyyatlar bərpa oluna bilər?**

- Ermənistan tarixinin ən çətin dövrünü yaşayır. Hər nə qədər məğlubiyyəti qəbul etməyib, həmin torpaqları yenidən işğal etməyə çalışsa da, bu, indiki mərhələdə çox çətindir. İstər daxili vəziyyət, iqtisadi böhran, istərsə də beynəlxalq münasibətlər sistemi Ermənistana hansısa ”şıltaqlıq” üçün imkan vermir. Azərbaycan isə bu günlərdə iqtisadi və hərbi qüdrətini artırmalıdır.

**- Qarabağın dirçəlməsi üçün orada hansı iqtisadi addımlar atılmalıdır?**

- Bəli, Qarabağın yenidən inşa edilməsi çox mühümdür. Başda türk firmaları olmaqla beynəlxalq investorların diqqətini cəlb etmək lazımdır. Qaçqın və köçkünlərin ən qısa zamanda evlərinə qayıtmaları üçün bütün zəruri addımlar atılmalıdır. Qarabağın tarixi məkanları restavrasiya olunaraq turizm obyektinə çevrilməlidir. Əcnəbiləri cəlb etməkdən ötrü Bakı-Tbilisi-Qars dəmiryolu xətti və aviareyslərlə geniş perspektivlər açılmalıdır. Buranın hüzur, sülh bölgəsi olması üçün hər cür addım atılmalıdır. Bölgənin təkrar işğal ediləbiləcəyi təhlükəsini nəzərə alaraq bütün hərbi və iqtisadi tədbirlər görülməlidir.

**- Proseslərin bundan sonrakı inkişafını necə təxmin edirsiniz?**

- Ermənistanda hazırda daxili vəziyyət xeyli qarışıqdı. Çevriliş cəhdləri, küçə nümayişləri iqtidarı bezdirib. Müxalifət hakimiyyətə qarşı radikal mövqe sərgiləyir. Onlar məğlubiyyəti həzm edə bilmir və münasib vaxtda hücuma keçmək istəyirlər. Amma bayaq da dediyim kimi, Ermənistan iqtisadiyyatı çökmüş vəziyyətdədir. Gənclərin əksəriyyəti Rusiyada və Avropa ölkələrində iş axtarır. Yəni dərin bir xaotik durum hökm sürür. Azərbaycanın əvvəlki Azərbaycan olmadığı və Türkiyənin də rəsmi Bakının yanında olması faktları düşməni daha da çəkindirir. Azərbaycan Qarabağın dirçəlməsi üçün işləri mümkün qədər tez başlamalıdır. Təkrarlayıram, bütün ehtimallar nəzərə alınmalı və adekvat tədbirlər görülməlidir.

**Kənan Novruzov**



## Vətəndaşlarda arxayınlıq yaranıb, yoluxma artır

### Əsas üç qaydaya əməl edilməlidir

**“İndi yoluxanların sayı əvvəlki dövrə nisbətən artıb, 2000-ə yaxınlaşıb. Buna səbəb karantin qaydalarının yumşaldılmasıdır”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında infeksionist-hepatoloq Mərdan Əliyev söyləyib. Ekspertin fikrincə, vətəndaşlarda arxayınlıq yaranıb:*

”Pandemiyadan qorunmurlar, biri-birlərinin evinə gedib-gəlirlər. Əsas üç qaydaya riayət edilməlidir. Birincisi, maskadan istifadə olunmalıdır. İkincisi, sosial məsafə saxlanılmalıdır. Üçüncüsü isə gigiyena qaydalarına əməl olunmalıdır. Bunlar yerinə yetiriləndə yoluxanların sayı azalır. Sadalanan qaydalardan ən vacibi maskadan istifadədir. Söhbət edərkən insanlarla ən azı bir metr məsafə gözlənilməlidir. Bir də əl verib görüşmək, təmasda olmaq yoluxmaya gətirib çıxarır. Yəqin ki, karantin qaydaları sərtləşdiriləcək. Yay fəslinə doğru getdiyimizə baxmayaraq buna ehtiyac olacaq”.

**Samirə**

# Müharibə Kiyev üçün çox risklidir

### Savaş olarsa, Ukrayna təkcə separatçılarla yox, həm də ruslarla mübarizə aparmalı olacaq

Son vaxtlar baş verən siyasi proseslər, o cümlədən müəyyən bəyanatlar Ukraynanın öz ərazi bütövlüyünü təmin etmək uğrunda mübarizəyə başlayacağını göstərir. Hətta Ukrayna Prezidenti Vladimir Zelenski bu haqda xüsusi sənəd qəbul edib.

Amma Rusiya da radikaldır. Ötən günlərdə Donbasda törədilən təxribat nəticəsində bir neçə ukraynalı hərbçisinin öldürülməsi onu deməyə əsas verir ki, Kreml öz hegemon siyasətindən əl çəkmir. Belə bir şəraitdə tərəflər arasındakı münasibətlərin necə davam edəcəyi isə sual altındadır.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu məsələ barədə ”Şərq”ə danışarkən rəsmi Kiyevi yol ayrıcında qoyan müxtəlif arqumentləri sadaladı:** ”Bildiyiniz kimi, separatçılar müxtəlif təxribatlar törədirlər. Bu isə müharibə ehtimalını artırır. Lakin Moskva qarşı tərəfə mesajlar göndərərək onu hədələyir. Bildirir ki, savaş başlasa, Ukrayna daha çox torpaq itirəcək.



Düzdür, Ukrayna beş il əvvəlki deyil. İndi silahlanıb, güclənib. Amma düşmənin də gücünü nəzərə almalıdır. Hərbi əməliyyatlar başlasa, Ukrayna təkcə separatçılarla yox, həm də ruslarla mübarizə aparmalı olacaq.

Ona görə qərar verməkdə çətinlik çəkir. Fəqət, Kreml Ukraynanı müharibəyə sürükləsə, başqa variant qalmayacaq. Özünə hörmət qoyan digər dövlətlər kimi, rəsmi Kiyev də adekvat cavab verəcək. Qərbdən kömək istəyə bilər. ABŞ isə silah-sursat yardımı etsə də, Ukraynanı parçalanmaqdan qurtarmayacaq”.

**E.Şahinoğlu, həmçinin potensial savaş təhlükəsində rəsmi Bakının mövqeyi barədə danışdı:** ”Rusiyanın planı aydındır - Ukraynanı parçalamaq. Bunu təcavüzə məruz qalan tərəf özü də bilir. Müharibə başlasa, çox güman, Qərblə Rusiya arasında münasibətlər daha da kəskinləşəcək. Amma Kreml sanksiyalardan çəkinmir.

Moskva qonşu ölkələri parçalamaq naminə istənilən riskə getməyə hazırdır. Hətta yerli partiyalar da separatçı bölgələri birləşdirmək barədə bəyanatlar verirlər. Əlbəttə, savaş başlasa, Azərbaycan neytral qala bilməz. Biz Rusiya ilə münasibətlərimizi qorumaq şərti ilə Ukraynanın ərazi bütövlüyünü dəstəkləməliyik.

Çünki rəsmi Kiyev bizə həmin jesti göstərmişdi. Dostluq da məhz bunu tələb edir”.

**Kənan Novruzov**



## Tam nəzarətdə saxlanacaq

### "YAŞAT" Fondu daha 27 qazini müalicə üçün Türkiyəyə göndərib

**Vətən müharibəsində ağır yaralanan daha 27 qazi "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib.**

Fonddan "Şərq"ə verilən məlumata görə, "YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək.



"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.

Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

*Xatırladaq ki, Fond tərəfindən bundan öncə 24 qazi müalicə üçün Türkiyəyə göndərilmişdi. Onlardan 4-ünün müalicə proseduru artıq uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib.*

## 6 məktəb koronavirusa görə bağlanıb

### Qazaxda bir direktor rəhmətə gedib



**Qazaxda 6 orta məktəb koronavirusa görə bağlanıb.**

Bu barədə APA-nın yerli bürosuna Qazax Şəhər Təhsil Şöbəsindən bildirilib.

Rayonun 6 məktəbində COVID-19 infeksiyasına yoluxmalar təsdiq olunub.

Məktəblərdə müəllim və şagirdlər arasında koronavirusun yayılmasının qarşısını almaq üçün dərslərin iki həftəlik distant davam etdirilməsi qərara alınıb.

Bundan əlavə, Qazax rayon Aslanbəyli kənd orta məktəbinin direktoru, 1956-cı il təvəllüdlü Dilqəm Məmmədov COVID-19-dan vəfat edib. Hazırda onun yerinə təyinat yoxdur.

*Qeyd edək ki, ötən gün Gəncə şəhəri 13 nömrəli məktəbin direktoru Hüsnay Mövlayeva da koronavirusun qurbanı olub.*

# "Əlimi Allaha açıb, dedim ki..."



## Kapitan Mayis Məmmədov:

### *"Anam, ailəm, dörd övladım və digər doğmalarım gözüyaşlı qalmadılar"*







44 günlük Vətən müharibəsi Azərbaycanın nəyə qadir olduğunu bir daha sübut etdi. Xalqın duaları, hərbiçilərin əzmkarlığı, vətən sevgisi və gücü sayəsində QALİB ÖLKƏ olduq. Haqq yerini tapdı, doğma torpaqlar düşmən işğalından qurtuldu.

Bu zəfəri Azərbaycan Ali Baş Komandan başda olmaqla, hərbiçi və əsgərlərinə borcludur! Vətən uğrunda neçə-neçə igid övlad şəhidlik zirvəsinə ucaldı! Şanlı İkinci Qarabağ müharibəsində böyük şücaətlə, mərdliklə vuruşan hərbiçilərdən biri Astara rayonunun Sım kəndinin sakini, coğrafiya müəllimi kapitan Mayis Məmmədovdur. Mayis müəllim öz şərəfli döyüş xatirəsini və düşüncələrini "Şərq"lə bölüşüb.

**"Əsgərim gəlib mənə dedi ki, komandir, müharibə bitdi, Ermənistan təslim oldu. Onda əlimi Allaha açıb, dedim: "Şükür sənə, bu günləri görməyi bizə nəsib etdin"**

**- Dünya tarixi üçün yaddaşlarda qalan İkinci Qarabağ müharibəsində düşmənə qarşı şərəflə vuruşdunuz. Döyüşlər zamanı keçirdiyiniz hiss-həyəcanlardan bir qədər danışardınız...**

- Müharibə başlayanda mən bir vətəndaş və zabit kimi döyüşə nə vaxt gedəcəyimi səbirsizliklə gözləyirdim. Sentyabrın 29-u vətən torpaqlarımızı işğaldan azad etmək kimi müqəddəs vəzifəni yerinə yetirmək üçün döyüşə yollandım. Ağcabədidəki N saylı hərbi hissədə 1-ci taborun 1-ci bölük komandiri vəzifəsinə təyin olundum. Hərbi formanı geyinəndə və belə bir vəzifəyə təyin olunanda böyük məsuliyyət daşıdığımı başa düşdüm. Tabeliyimə səfərbərlikdən gələn əsgər və zabitlər verdilər. Üç-dörd gün müddətinə onları silahlandırıb tam komplekləşdirəndən sonra döyüşə yollandıq. Bu artıq ayrı bir səhnə idi. Sözlə ifadə edilməsi çox çətin idi. Qorxub özünü itirmək və ya təşvişə düşmək ölümə bərabər idi. Komandir olduğum üçün bir zabit kimi məsələyə soyuqqanlı yanaşmalıydım. Verilən döyüş tapşırığını minimum itki ilə yerinə yetirmək əsas vəzifələrimizdən idi. Bundan başqa 27 ildən artıq alnımızdakı işğal ləkəsini silmək üçün əlimizə yaxşı fürsət düşmüşdü. Xüsusən, bizim yaşda olanlar bu işğala son vermək üçün daha böyük əzmkarlıq göstərməli idilər. Müharibəni tez bir zamanda qalibiyyətlə başa vurub gələcək nəsillərə əmin-amanlıq sağlamaq istəyirdik. Bunun üçün düşmənə daha çox itki verib onları işğal etdikləri kəndlərimizdən, şəhərlərimizdən qovduqca qələbəyə olan inamımız daha da artır, bu hiss şəxsi heyətdə ruh yüksəkliyi yaradırdı. Düzdür, şəhidlərimiz də olurdu. Bu zaman bizim bir vəzifəmiz də canını vətən torpağına fəda edən şəhid olan döyüşçü yoldaşlarımızın qisasını almaq, onların qanları tökülən torpaqları azad etməyi özümüzə borc bilirdik.

Döyüş zamanı arxada bizi gözləyənləri də fikirləşirdik. Onların böyük həyəcanla bizim qələbə ilə sağ-salamat qayıtmağımızı gözlədiklərini bilirdik. Bu hisslər o odun-alovun içində bizə az da olsa təskinlik verirdi.

**- Hansı ərazilərdə döyüşürdünüz?**

- Biz döyüşlərə Füzulidən Cəbrayıla girəndə başladıq. Cəbrayılın azad olunmasında gedən döyüşlərdə iştirak etdik. Bu zaman biz Hadrutun ətrafındakı yüksəkliyi alıb, yolu təmizlədik. Daha sonra Cəbrayıldan Zəngilana keçib oradan Qubadlıya daxil olduq. Burada da düşmənin müqavimətinə rast gəldik, lakin onları yenə də qaçmağa məcbur etdik. Ağır döyüşlərdən sonra Qubadlı şəhərinin azad edilməsində iştirak etdik. Oradan isə Həkəri çayını keçib düşməni sərhədə tərəf qovmağa başladıq. Gorusla sərhəddəki yüksəklikdə çox ağır döyüşlər getdi. Bu döyüşlərdə xeyli döyüşçülərimiz, hətta döyüşlərdə cəsarətlə vuruşan tabor komandiri polkovnik-leytenant Nail Orucov da qəhrəmancasına şəhid oldular, çoxu da minatanların qəlpəsi ilə. Mən özüm də minaatanın dalğasının zərbəsinə məruz qaldım və yüngül kontuziya aldım, yarım saatdan sonra özümə gəldim. Tabor komandiri şəhid olduğuna görə bu vəzifəni müvəqqəti olaraq mənə həvalə etdilər və mən döyüşü davam etdirdim.

Müharibə zəfərlə başa çatana qədər biz həmin ərazilərdə vuruşaraq düşmənin başına "dəmir yumruğ"u endirib onları iti qovan kimi torpaqlarımızdan qovduq!

**- Qələbə qazandığınızı biləndə ilk reaksiyanız necə oldu?**

- Qələbə xəbərini gecəyarısı eşitdik. Qubadlı şəhərində yerləşən bölmələrdə avtomat və pulemyotlardan açılan atəş səslərini eşidib əlimi tez silahıma atdım. Əvvəlcə elə bildim ki, düşmən ora hücum edib. Sonra isə bizimkilərin sevinclə hay-küy saldıqlarını eşitdim. Sonra isə əsgərim gəlib dedi ki, komandir, müharibə bitdi, Ermənistan təslim oldu. Onda əlimi Allaha açıb dedim: "Şükür sənə, bu günləri görməyi bizə nəsib etdin".

Anam, ailəm, dörd övladım və digər doğmalarım gözüyaşlı qalmadılar.

**- Qalib hərbiçi kimi doğmalarınızın yanına qayıtmaq və onların sizi qürurla qarşılamaları - bu haqda fikirlərinizi bölüşərdiniz...**

- Müharibə başa çatandan sonra əvvəlcə, yəni, noyabrda məni kapitan rütbəsi ilə, dekabrın ortalarında isə medallarla təltif etdilər. Lakin ən böyük mükafatı isə dekabrın 30-da təxris edilib, rayona daxil olanda bizi böyük coşqu ilə qarşılayan doğmalarımız, el-oba, ümumiyyətlə, xalq verdi. Ağır döyüşlərdən sonra qalib ordunun zabiti kimi gəlib doğmalarınla görüşmək, bu anları ifadə çətindir... Bir yandan alqış sədaları, bir yandan sevinc göz yaşları, bir sözlə, bu anı həyəcansız yaşamaq mümkün deyil. Bu, xalqımızın orduya olan güvəninin, qələbəyə olan inamının əsl ifadəsi idi.

Azərbaycan 44 günlük müharibədə şanlı tarix yazaraq, ədaləti bərpa etdi. Bu, dövlət, ordu və xalqın vəhdətinin nəticəsi idi. Biz birlikdə bunu bacardıq!

**- Sonda, həm müəllim, həm də Kapitan kimi tövsiyələriniz...**

- Ailə, vətən və dövlət məfhumunun dəyərli və əvəzsiz olduğunu bilmək çox vacibdir. Ona görə də bunları qorumaq, yaşatmaq və gələcək nəsillərə çatdırmaq lazımdır.

Ailəsini sevən şəxs vətənini sevib, dövlətinə bağlı olmalıdır. Bunu hər bir vətəndaş dərk edib, bu məsələdə mövqe göstərməlidir - Vətəndaş mövqeyi. Çünki hamımızın xalq, vətən qarşısında unutmamalı olduğumuz vəzifələrimiz var. Çalışaq hər zaman bu vəzifələrimizin öhdəsindən gələk.

Biz vətənin, xalqın və dövlətin mənafeyi naminə birlik nümayiş etdirməliyik. Necə ki, bu müharibədə birliyimizi göstərdik və zəfər çaldıq.

Bu müharibədə canını fəda edən şəhidlərimizi unutmayıb onları rəhmətlə yad edək.

*Allah ölkəmizə bir daha müharibə qismət eləməsin!*

**Söhbətləşdi:**
**Zərintac Mayis qızı**

# Xəstəxanalara inamsızlıq var

## Tibb bacıları koronaviruslu xəstələri evdə müalicə edirlər



**“Özbaşına xəstələrə antibiotik və sistem vururlar. Bu da nəticədə xəstədə daha böyük ağırlaşmalara və fəsadlara gətirib çıxarır”**

**“Modul tipli xəstəxanalarda çalışan tibb bacıları xəstələri COVID-19-a görə evdə müalicə edirlər”. Bu sözləri Azərbaycan Tibb Universitetinin Yoluxucu Xəstəliklər kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Vüqar Cavadzadə bildirib.**

Həkim qeyd edib ki, 15 gün modul tipli xəstəxanada işləyən tibb bacıları evdə xəstələrə ağıllarına nə dərman gəldi vururlar: ”Xəstələrə deyirlər ki, ”Biz modulda hər şeyi öyrənmişik, həkimlər xəstələrə nə yazırlar, biz hamısını bilirik. Biz ağır xəstələri dirildirik”. Xəstələr də inanır, canlarını tibb bacılarına etibar edirlər. Müayinə etdiyim xəstənin 10 gündür ki, yüksək qızdırması düşmür, tibb bacısı isə deyib ki, ”Narahat olmayın, COVID-də əlamətlər belə olur”. V.Cavadzadənin sözlərinə görə, ehtiyac olmadığı halda xəstənin vena daxilinə infuziyalar yeridilir.

**Mövzuya münasibət bildirən həkim infeksionist İlahə Vəliyeva ”Şərq”ə açıqlamasında bildirib ki, tibb bacılarının bu cür hərəkəti təbii ki, ilk növbədə yolverilməzdir. Həkim qeyd edib ki, bu cür qanunsuz əməllər çox zaman xəstənin həyatı bahasına başa gəlir:** ”Tibb bacılarının belə əməllərinə mən də çox rast gəlmişəm. Onlarda daha çox sistemə meyillilik var. Yəni onlar lüzumsuz yerə insanlara sistemlər təklif edirlər ki, bu, kömək olacaq. Amma bir şeyi bilməlidirlər ki, hər bir orqanizm fərqlidir, yəni individualdır. Yəni biz həkimlər bir xəstəyə olunan müalicəni başqa bir xəstəyə yazmırıq. Çünki hər birində başqa əlamətlər müşahidə olunur. Sistemlə xəstə müalicə etmək düzgün deyil. Bəzən tibb bacıları özbaşına xəstələrə antibiotik və sistem vururlar. Bu da nəticədə xəstədə daha böyük ağırlaşmalara və fəsadlara gətirib çıxarır”.

**İ.Vəliyeva xəstəxanalara olan inamsızlığın səbəblərini belə izah edib:** ”Məlumdur ki, xəstəxanalarda fərdi qaydada müalicəyə üstünlük verilmir. İnsanlar da düşünür ki, xəstəxanaya gedərəm, yaxşı baxmazlar. Bu səbəbdən də evdə müalicəyə üstünlük verirlər. Həmçinin xəstəxanalarda son vaxtlar ölüm hadisələri çox oldu. Hesab edirəm ki, ölüm hadisələrinə görə də insanlar xəstəxanalara üz tutmaqda qorxurlar”.

**Aynurə Pənahqızı**



## Bu ilin sonuna kimi kütləvi immunitet yaranacaq

### Səbr edib yenə də əvvəlki qayda ilə qorunmaq lazımdır

**Son günlər koronavirus peyvəndi barədə müxtəlif iddialar səslənir. Bəziləri vaksinin effektsiz olduğunu düşünürlər.**

Həkimlərin ”peyvənd olunanlar da koronavirusa yoluxa bilər” açıqlamaları ilə şübhələr bir az da artır.

***Tibb üzrə fəlsəfə doktoru Yazgül Abdiyeva isə “Şərq”ə açıqlamasında peyvəndin əhəmiyyətini izah etdi:*** ”Sadəcə peyvənd olunub ”xəstəliyə tutulmaram” deyə qapalı məkanlara maskasız getməyin. Yenə də eyni qayda ilə qorunmaq lazımdır. Peyvənd olunmaq xəstəliyə tutulmamaq deyil. Amma vaksin xəstəliyin yüngül və asimptomatik formada keçirilməsinə səbəb olur. Son zamanlar xəstəlik daha ağır formada keçir.

Səbəblər evdə kortəbii müalicə, ”Məndə heç nə yoxdur, bir az soyuqlamışam” deyərək həkimə gec müraciət, ”rezerv” antibiotiklərlə immun sistemini zəiflətmək ola bilər.

Erkən diaqnostika tez sağalma deməkdir. Yas yerləri, qonaqlıq və digər kütləvi tədbirlərə müvəqqəti olsa da, getməyin. Özünüzü, ailənizi və ətrafınızı qoruyun! 2021-ci ilin sonuna kütləvi immunitet yaranar, inşallah, bu xəstəlik adi qrip kimi olar”.

**Kənan**



## “Hər iki vaksinasiya zamanı başgicəllənməsi oldu”

### Deputat ümumilikdə özünü yaxşı hiss edir, problemi yoxdur

**Milli Məclisin deputatlarının koronavirusa qarşı vaksinasiyasının ikinci mərhələsi başa çatıb. Ötən həftə ərzində deputatlara vaksinin ikinci dozasının vurulması həyata keçirilib. Qeyd edək ki, deputatların vaksinasiyası könüllülük prinsipi əsasında həyata keçirilib.**

*Deputat Ceyhun Məmmədov da vaksin olunanlar arasındadır. O, ”Şərq”ə açıqlamasında vaksinasiyadan sonra özünü yaxşı hiss etdiyini vurğulayıb:* ”Həm birinci, həm də ikinci vaksinasiyada az başgicəllənməsi oldu. Yəni ümumilikdə götürdükdə prosesi normal keçirirəm. Hansısa bir ciddi problem, fəsad yoxdur, özümü normal hiss edirəm. Hər bir vətəndaşımız çalışmalıdır ki, bu prosesdə aktiv olsun”.

Deputat insanları peyvəndlə bağlı yayılan şayiələrə inanmağa səsləyib və hər kəsi peyvənd olunmağa çağırıb: ”Zaman-zaman müxtəlif fikirlər eşidirəm. Ümumiyyətlə götürdükdə tövsiyə edərdim ki, bu məsələ ilə bağlı hər hansı bir fikir bildirəndə insanlarımız həddən artıq diqqətli olsunlar. Yəni biz bu vaksinasiya prosesindən mütləq keçməliyik. Başqa yolumuz yoxdur. Ona görə də prosesdə hər kəs iştirak etməlidir. Hər kəsə tövsiyə edirəm ki, peyvənd olunsun və özünü bu xəstəlikdən qorusun”.

**Aynurə**

# 24 saatlıq icazə belə verməzlər

## “İndiki iqtidar Saakaşvilini asanlıqla ölkəyə buraxmaz”

Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili növbəti dəfə ölkəyə qayıtmaqla bağlı fikirlər səsləndirib. Sabiq prezident iddia edib ki, əgər Gürcüstana geri dönməyinə problem yaradılmazsa, ölkəyə qayıdaraq problemləri qısa müddətdə həll etmək iqtidarındadır. Saakaşvili Gürcüstanda kifayət qədər dəstəkçisinin olduğunu, gürcülərin onun yanında yer alacağını söyləyib:

”Gəlin, eksperiment aparaq. Məni ölkəyə buraxsınlar, and içirəm ki, 24 saat ərzində küçələrdə mühafizəçilər olmadan gəzəcəm. Xalqa fikirlərini sərbəst ifadə etmək imkanı verilsin. Niyə buna icazə verilmir? Bəlkə ona görə ki, Gürcüstan torpağına ayaq basan kimi hazırkı hakimiyyət xalqın ona dəstəyinin 5 faiz, mənə isə 70-75 faiz olduğunu görəcək”. Məlum olduğu kimi qonşu ölkədə siyasi gərginlik var və seçkidən sonra iqtidarla müxalifət arasındakı mübarizə davam etməkdədir. Ökədə genişmiqyaslı etiraz aksiyalarına start veriləcəyi də gündəmdədir. Təbii ki, belə vəziyyətdə Mixail Saakaşvilinin ölkəyə qayıtması proseslərə fərqli yön verə bilər.



**“Saakaşvili həbs ediləcəyini bildiyi üçün Gürcüstana qayıtmağa risk etmir və hökumətdən təminat istəyir”**

**Politoloq Əhəd Məmmədli ”Şərq”ə vurğulayıb ki, sabiq prezident Gürcüstanı tərk edəndən sonra ölkədə xeyli seçki keçirilib. Siyasi şərhçinin sözlərinə görə, bu seçkilərin heç birində Saakaşvilinin dəstəklədiyi siyasi qüvvələr qələbə qazana bilməyib:** ”Sonuncu prezident və parlament seçkisində Saakaşvilinin partiyası qalib olmadı. Əlbəttə, xaricdən proseslərə müdaxilə etməklə, ölkə daxilində fəaliyyət göstərmək eyni nəticəni vermir. Saakaşvili bu reallığı yaxşı dərk edir. Anlayır ki, şəxsən ölkəyə geri dönüşü ciddi ajiotaja səbəb ola bilər. Dəstəkçiləri, tərəfdarları daha da güclənər, toparlanar. Ancaq indiki iqtidar Saakaşvilini asanlıqla ölkəyə buraxmaz. Hətta 24 saatlıq icazə belə verməzlər. Sabiq prezidentə qarşı cinayət işi açılıb və sərhədi keçən kimi həbs olunacaq. Saakaşvili həbs ediləcəyini bildiyi üçün Gürcüstana qayıtmağa risk etmir və hökumətdən təminat istəyir”.

**Ə.Məmmədli Saakaşvilinin iddia etdiyi kimi 75 faiz dəstəyə malik olduğunu zənn etmir:** ”Əksinə, indiki iqtidarın daha çox dəstəyə malik olduğu qənaətindəyəm. Saakaşvilinin Gürcüstandakı sosial bazası ən yaxşı halda 15-20 faiz arasındadır. Ümumən, qərbyönlü siyasi qüvvələrin dəstəkçiləri 50 faiz civarındadır. Burada Saakaşvilinin payı 20 faizdən yuxarı deyil”.

**İsmayıl Qocayev**

# "Rəsmi Moskvanın Qarabağla bağlı cəhdlərinin qarşısı alınmalıdır"



*"Unutmayaq ki, Kreml məhz Jirinovski və Mironov kimilərin vasitəsilə mesajlarını yollayır"*

"Rusiyada sentyabr ayında parlament seçkisi keçiriləcək. Partiyalar hazırlıq mərhələsində əsas şüarlarını müəyyənləşdirirlər. Dövlət Dumasında təmsil olunan və Sergey Mironovun sədri olduğu "Ədalətli Rusiya" partiyası özünəməxsus şüar seçib: "Rusiya ərazilərinin genişləndirilməsinə nail olmaq!". Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu özünün feysbuk hesabında yazıb. Politoloq bu barədə daha ətraflı "Şərq"ə danışdı:

"Rusiya ərazisinə görə dünyanın ən böyük dövlətidir. Bu dövlət olan ərazilərini inkişaf etdirməkdə, bütün əhalini mimimum yaşayış imkanları ilə təmin etməkdə çətinlik çəkməyinə rəğmən, rusiyalı bir qrup siyasətçi hələ də ərazilərin daha da böyüdülməsi xəyalı ilə yaşayır. Bəs Rusiya Prezidenti Vladimir Putinin sankt-peterburqlu dostu Sergey Mironovun partiyası "böyümə" dedikdə hansı "yeni əraziləri" nəzərdə tutur? Bunu gizlətmirlər: "Abxaziya, Cənubi Osetiya, Dnestr bölgəsi, Donbas və... Dağlıq Qarabağ"... Yəni keçmiş SSRİ məkanında harda separatçı bölgə varsa, oranı Rusiyaya birləşdirməyi hədəf seçiblər. Yaxşı, Abxaziyanın, Cənubi Osetiyanın və Donbasın Rusiya ilə birbaşa sərhəddi var. Bəs, Dağlıq Qarabağı Rusiyaya necə "birləşdirməyi" planlaşdırırlar? Azərbaycanın bir

"Rusiyanın təsir imkanlarının azaldılmasına və Türkiyə ilə ittifaqın gücləndirilməsinə var qüvvəmizlə çalışmalıyıq!"

parçası olan Qarabağın Rusiya ilə sərhəddi yoxdur. Tutaq ki, Moskvadakı qüvvələr Qarabağdakı erməniləri "birləşdirməyə" həvəsləndirdilər və ermənilər yeni şüar ortaya atdılar, bəs azad etdiyimiz ərazilər necə olacaq? Mironov və onun havadarları Şuşasız və Laçınsız Qarabağın dağlıq hissəsini Rusiyaya necə "birləşdirməyi" təsəvvür edirlər"?

**E.Şahinoğlunun fikrincə, rəsmi Moskvanın Qarabağla bağlı cəhdlərinin qarşısı alınmalıdır:** "Sergey Mironov tez-tez fikir dəyişdirən siyasətçidir. Onun 2010-cu ildə Dağlıq Qarabağla bağlı verdiyi açıqlamaya diqqət yetirək: "Qarabağ problemini yalnız münaqişə tərəfləri həll edə bilər və onlar da qarşılıqlı maraqların təmin olunması şərti ilə bunu etməlidir. Onlar razılaşmaya gəldikdən sonra Rusiya bu razılaşmaların qarantı rolunda çıxış etməyə hazırdır. Lakin əraziyə qoşun yeritmək yolverilməzdir. Bu, düzgün olmazdı". Üstündən 10 il keçdikdən, müharibənin başlamasından cəmi iki gün sonra Mironov fərqli açıqlama verdi: "Ölkələr arasında atəşkəs və əsgərlərin çıxarılması barəsində razılığın əldə olunmasının ardınca Rusiya tərəfindən sülhməramlı qüvvələrin daxil edilməsinin lazım gəlməsi mümkündür".

Mironov müharibə günlərində ermənilərə xoş gəlsin deyə Türkiyənin münaqişənin həllindəki rolunu da mənfi dəyərləndirmişdi: "NATO-nun üzvü Türkiyə bu köhnəlmiş münaqişənin inkişafına imkanlar yaradır".

Əslində Mironovun dediyini daha əvvəl qatı şovinist Vladimir Jirinovski səsləndirmişdi. Jirinovski həm Dağlıq Qarabağı Rusiyaya "birləşdirməyi", həm də Türkiyəni uzaq tutmağı təklif etmişdi.

Əraziləri "ilhaq" etmək Rusiyanın köhnə siyasətidir. Kreml Krımdan sonra Donbası da ilhaq etməyə çalışır, artıq Ukraynanın şərqində vəziyyət gərginləşib, separatçıların təxribatları nəticəsində atəşkəs intensiv pozulur, ölənlərin sayı artır.

Ona görə rusiyalı rəsmilərin Dağlıq Qarabağ haqqındakı açıqlamalarını qulaqardına vurmaq olmaz. Unutmayaq ki, Kreml məhz Jirinovski və Mironov kimilərin vasitəsilə mesajlarını yollayır.

Rusiyanın təsir imkanlarının azaldılmasına və Türkiyə ilə ittifaqın gücləndirilməsinə var qüvvəmizlə çalışmalıyıq!".

**Kənan Novruzov**



## Rus istehsallı cihazlar alır

### Almaniya donanmasını gücləndirir

**Alman donanmasınn sualtı qayıqları Rusiyanın "Transas" şirkətinin hazırladığı naviqasiya cihazları ilə təchiz edilib.**

Bu barədə "Şərq" TASS-a istinadən xəbər verir. Tərəflər arasında əməkdaşlığın 2005-ci ildə başladığı bildirilib. Həmin vaxtdan etibarən Almaniya müntəzəm olaraq rus istehsallı cihazlar alır.

**Kənan**

## ABŞ İrana və Cənubi Sudana qarşı sanksiyalar rejimini uzadıb




**ABŞ İran və Cənubi Sudana qarşı birtərəfli sanksiya rejimini uzadıb.**

Trend-in məlumatına görə, bu barədə ölkə prezident Co Bayden tərəfindən imzalanan və ABŞ Konqresinin rəhbərliyinə göndərilən yazılı bildirişlərdə deyilib.

ABŞ lideri bildirib: "İran hökumətinin hərəkətləri və siyasəti ABŞ-ın milli təhlükəsizliyi, xarici siyasəti və iqtisadiyyatı üçün qeyri-adi və fövqəladə bir təhlükə yaratmağa davam edir".

Sənəddə qeyd edilib ki, bununla əlaqədar C.Bayden "bu təhdidə cavab olaraq İrana qarşı hərtərəfli sanksiyaları qüvvədə saxlamağa qərar verdi".

Eyni qərar ABŞ administrasiyasının rəhbəri tərəfindən Cənubi Sudanla bağlı qəbul edilib.

## Türkiyədə günlük yoluxma sayı 32 mini keçdi



**Türkiyədə yeni növ koronavirusdan (COVID-19) sutka ərzində 154 nəfər ölüb.**

Bu barədə Türkiyənin səhiyyə naziri Fahrettin Koca məlumat verib. O bildirib ki, son 24 saatda simptomları müəyyən edilməyən xəstələrlə birlikdə daha 32 404 nəfər COVID-19 infeksiyasına yoluxub. Bu gün 18 015 nəfər sağalıb, ağır xəstə sayı isə 1 325 olub.

*Qeyd edək ki, Türkiyədə indiyədək 3 240 577 COVID-19 xəstəsi qeydə alınıb, onlardan 2 975 108 nəfər sağalıb, 31 230 nəfər isə ölüb.*

## "Şəhərdə kamikadze var"

### Vətəndaşlara xəbərdarlıq edilib



**Rusiyanın İndoneziyadakı səfirliyi ölkədə rus vətəndaşlarını ehtiyatlı olmağa çağırıb.**

"Şərq" TASS-a istinadən xəbər verir ki, səbəb kimi kamikadzenin Makassar şəhərindəki katolik kilsəsini bombardman etməsi göstərilir. İnsanlardan sıxlıq olan yerlərə getməmələri xahiş edilib. Bundan əvvəl Makassarda terror aktı nəticəsində bir neçə nəfər yaralanmışdı.

**Kənan**

# Dünya Türk Jurnalistlər Birliyi yeni rəhbər heyətlə

Dünya Türk Jurnalistlər Birliyi (World Turkish Journalist Union) yeni rəhbər heyətlə Türkiyə və Azərbaycanın informasiya məkanında ilkə imza atmaq niyyətindədir. Belə ki, Birliyin yeni Prezidenti Salih Kurt "Təzadlar"a açıqlamasında onu bu vəzifəyə layiq görən vətənpərvər və türksevər keçmiş rəhbərliyə dərin təşəkkür etdiyini söylədi.




Birliyin rəhbərliyi 31 mart 2021-ci il tarixdə yeni Prezident Salih Kurtun başçılığı ilə 7 illik fasilədən sonra yenidən bir araya gələcək...

"Çalışacağam ki, rəhbər seçildiyim təşkilatın imkanları ilə Türkiyə və Azərbaycan həqiqətlərini, eləcə də türk dünyası gerçəkliklərini dəqiq və operativ şəkildə dünya ictimaiyyətinə çatdırmağa nail olaq. Eləcə də hədəfimiz erməni yalanlarının dünyanın informasiya məkanına ayaq açmasının qarşısını almaqdan ibarətdir, artıq bu istiqamətdə Türkiyəyə və Azərbaycana dost ölkələrin tanınmış yazarları ilə sıx əlaqələr qurmaqdayıq...", -deyən Salih Kurt bu istiqamətdə əlindən gələni etməyə hazır olduğunu bildirdi.

ASİAD-ın başçı köməkçisi, TINGADER-in sədr müavini sayın Salih Kurt yeni rəhbər heyətə və həmkarlarına ayrı-ayrılıqda təşəkkür etdi, məqsədlərinin Dünya Türk Jurnalistlər Birliyi olaraq ölkələrimizin şərəfli adını daha da yüksəklərə qaldırmaq olduğunu dilə gətirdi. O, həmçinin türkdilli və islam ölkələri ilə sıx əlaqələr qurmaqla, dünya ictimaiyyətini dəqiq, prinsipial xəbərlərlə təmin etməyi hədəflədiklərini qeyd etdi. Türkiyə Respublikası Baş Nazirliyi yanında Yüksək Terrorizm Məşvərət Şurasının keçmiş üzvü olan Salih Kurt dedi:

"...Məqsədimiz türk dünyasında və islam ölkələrində mövcud problemləri dünyaya səsləndirə bilməyən insanların səsini nəinki eşitməkdir, həm də onların səsini dünyaya eşitdirməkdir!".

Böyük türk millətinin və islam dünyasının hər cür milli və mənəvi dəyərlərinə hörmət edəcəklərini vurğulayan Prezident Salih Kurt, Dünya Türk Jurnalistlər Birliyinin yeni rəhbər heyətində təmsil olunanların da adlarını açıqladı:

1. Prezident: Salih Kurt;
2. Vitse-prezident: Asif Məmmədov (Mərzili);
3. Başçı köməkçisi: Yasemin Kurt;
4. Başçı köməkçisi: Yasəmən Məmmədli;
5. Hüquq müşaviri: Adil Minbaşı;
6. Elmi Komitə sədri: Abdulkadir İnal Tekin;
7. İdarə Heyətinin üzvü: Saima Hayat Khan;
8. İdarə Heyətinin üzvü: Xanım Kərimova;
9. İdarə Heyətinin üzvü: Şakir Qurbanov.

**Elçin Məmmədli**

## İctimai və dövlət maraqlarının müdafiəsi



# Başlandı...

## Qarabağda quruculuq işləri planlı şəkildə aparılacaq

*Bərpa işlərində yerli əhali, həmçinin, ölkəmizin bütün bölgələrindən vətəndaşlarımız iştirak edəcək*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

"Məcburi köçkün" adı altında 30 ilə yaxın yaşamış soydaşlarımız artıq bu ağır yükdən xilas oldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuz, rəşadətli əsgərlərimiz erməni tapdağında qalan torpaqlarımızı azad etdi, xalqımıza tarixi zəfərdən doğan əvəzsiz qürur hissi yaşatdı. İşğala son qoyuldu.

Müharibə bitdi. Bütün tarix boyu, ayrı-ayrı əsrlərdə, illərdə yaşanmış müharibələrdən sonrakı vəziyyəti hazırda Azərbaycan da yaşayır. Fərq burasındadır ki, Azərbaycanımızın üzləşdiyi, qarşı-qarşıya gəldiyi düşmən hədsiz qəddar, nankor, dağıdıcı, ziyanverici, vəhşi idi. Bunu cənab Prezident çıxışlarında vurğulayıb. Hər dəfə işğaldan azad edilmiş hansısa bölgəyə səfərləri zamanı, cənab Prezident də, bu səfərlərdə daim onunla yanaşı addımlayan ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da gördükləri acı mənzərədən necə mütəəssir olduqlarını dilə gətirib, dağıdılmış, viran edilmiş yurd yerlərimizin, şəhərlərin, kəndlərin görüntülərini paylaşıblar. Artıq bütün dünya erməni vandalizminə şahiddir. Bu mənada hazırda dövlətimizin qarşısında çox çətin, illərlə davam etməsi gərəkən bir vəzifə dayanır - dağıdılmış şəhər və kəndləri bərpa etmək, yurd-yuvasından didərgin salınmış vətəndaşlarımızı doğma elinə qaytarmaq, viran qalmış ərazilərə həyat vermək, dirçəltmək. Azərbaycan dövləti bunun öhdəsindən gələcək. Mütləq gələcək. Buna inamımız qətidir. Lakin bu işlərin vaxt aparacağı da məlumdur. Keçmiş köçkün vətəndaşlarımız əlbəttə səbirsizlənir, doğma evlərinə, yurd-yuvalarına tez qayıtmaq istəyir. Ancaq mənfur düşmən məkrindən yenə əl çəkmir. Ermənistan 30 ilə yaxın müddətdə minaladığı Azərbaycan ərazilərinin xəritəsini təhvil verməməklə beynəlxalq cinayətkar olduğunu bir daha sübut edir. Belə vəziyyətdə vətəndaş kimi üzərimizə düşən vəzifə dövlətin tətbiq etdiyi qanunlara, qaydalara riayət etmək, səfər edilməsinə icazə verilən ərazilərə gedişlər təşkil etməkdir. İşğaldan azad edilmiş bölgələrin bərpasının iqtisadi, sosial üstünlükləri barədə istər yerli, istərsə də xarici mütəxəssislərin rəyi demək olar üst-üstə düşür. Qarabağın tam bərpası üçün təxminən 5-10 il zaman lazım gərəkəcəyi bildirilir. Qarşıdakı 5 il ərzində dövlətin qarşıya qoyduğu bütün layihələr, planlar, tikinti və quruculuq işləri sürətlə davam edəcək. Həyat üçün, yaşayış üçün kiçicik bir imkan olan kimi onsuz da vətəndaşlarımız Qarabağı qucaqlayacaq. Bu işlərin aparılması üçün, sadəcə, əhəmiyyətli layihələrə və ən zəruri işlərə qısa zamanda başlamaq lazımdır.

### "Biz qayıtmışıq və bərpa işlərinə başlamışıq"

**Qarabağdakı bərpa işləri ilə bağlı Prezident yanında Dövlət İdarəçilik Akademiyasının baş müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov fikirlərini belə açıqlayıb:**

- Xatırlayırsınızsa, cənab Prezident İlham Əliyev Laçın rayonunun düşməndən azad edilmiş Güləbird kəndində Azərbaycan bayrağını qaldırarkən dedi ki, bizim Qələbəmiz tarixi Qələbədir: "Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!". Beləliklə, Prezident İlham Əliyevin başçılığı ilə bölgədə yeni prosesləri seyr etməkdəyik. Erməni işğalçıları torpaqlarımızdan qovulub, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə start verilib. Artıq 2021-ci il dövlət büdcəsində işğaldan azad olunan ərazilərdə bərpası və yenidənqurma işlərinin aparılması üçün maliyyə təminatı da yaradılıb. İlkin rəqəmlərə görə, işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi kimi şərəfli və məsuliyyətli vəzifələrin icrası 2,2 milyard manat nəzərdə tutulub. Azərbaycan rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərindən birinə çevriləcək.

### Dövlət lazım olan addımları atır

Dünyanın nəzəri hazırda Qarabağdadır. Ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanın dağıdılmış şəhər və kəndləri necə bərpa edəcəyi şübhəsiz, dünya dövlətlərinin, bizə dost və qeyri-dost ölkələrin də marağındadır. Bu günlərdə qardaş Türkiyədə Qarabağın dirçəlişindən bəhs edən sənədli film yayımlanıb. Filmin müəllifi Qarabağ müharibəsindən tanıdığımız, həmin alovlu günlərdə xalqımızın, dövlətimizin yanında olan, qaynar bölgələrdən hazırladığı reportajları ilə Azərbaycanın səsini dünyaya yayan xanım jurnalist Fulya Öztürkdür.

CNN Türk-də təqdim olunan film "Qarabağda 44 gündə nələr baş verdi?" adlanır. Filmdə 2-ci Qarabağ müharibəsi barədə gerçəklər nümayiş etdirilir. Gəncəyə, Bərdəyə erməni təcavüzkarlarının atdığı ballistik raketlərin törətdiyi faciələr, ordumuzun şanlı zəfəri, vətəndaşlarımızın dövlətimizin, Prezidentin ətrafında birləşməyi, xalqın bir yumruq kimi birliyindən bəhs edən filmin sonunda müəllif işğaldan azad edilmiş ərazilərdə aparılacaq quruculuq, bərpa işlərinə də toxunur. Və cənab Prezident İlham Əliyevin çıxışından sitat gətirir. Prezident qətiyyətlə bildirir ki, Azərbaycan qısa zamanda Qarabağı dirçəldəcək.

Xatırladaq ki, bu günlərdə "ARB24" kanalının "Gündəm" verilişinə açıqlamasında ABŞ-ın "Beynəlxalq Münaqişələrin Həlli Mərkəzi"nin nümayəndəsi Kristofer Çambers də Qarabağın yaxın 5 ildə bərpa olunacağını söyləmişdi və bildirmişdi ki, bəzi yerlər tam dağıdıldığı üçün yenidən infrastruktur qurulmalıdır:

- Qeyri-neft sektoru inkişaf etdirilməlidir. Bu, çətin proses olsa da, dövlət lazım olan addımları atır. Düşünürəm ki, plan yaxşı qurulub, prioritet olaraq yalnız tərəqqi götürülüb.

### Xalq və dövlət məsuliyyətli işin öhdəsindən gələcək

İndi sınaq zamanıdır. Ölkəmiz çətin sınaqlarla üz-üzədir. Bir tərəfdən bəşəriyyəti ölümlə təhdid edən COVİD-19 virusu, dünya nəhənglərinin virusla mübarizədə aciz qalması, dünya iqtisadiyyatının tənəzzülü hələ ki, davam edir. Azərbaycanı dünyada cərəyan edən prosesdən kənar təsəvvür etmək mümkün deyil. Eyni çətinlikləri ölkəmiz, dövlətimiz də yaşayır. Virusla mübarizə aparıldığı bir vaxtda Azərbaycan həm də ikinci cəbhədə - Vətən müharibəsində savaşdı və alıb gəldi. Bununla da Azərbaycan dövləti hətta ən ağır zamanda da öz əzəli və əbədi məqsədindən - ərazi bütövlüyünün bərpasından əl çəkmədiyini sübut etdi. Belə bir gücə, iradəyə sahib ölkə - dövlət, təbii ki, xalqın gücünə, vətəndaş birliyinə söykənərək ikinci vacib bir vəzifənin - işğaldan azad edilmiş torpaqların bərpasının, dirçəldilməsinin də öhdəsindən gəlməyə qadirdir.

İqtisadçılar da belə hesab edir ki, bi proses nə qədər çətin olsa da və bunun üçün müəyyən bir zaman kəsiyi gərəksə də, dövlət bu vəzifənin öhdəsindən gələcək.

**Millət vəkili, iqtisadçı Vüqar Bayramovun fikrincə, Azərbaycanın malik olduğu maliyyə resursları bərpa prosesini qısa zamanda icra etməyə imkan verir:**

- Burada bir neçə məqama xüsusi toxunmaq lazımdır - əvvəla, büdcədə infrastruktur və investisiya xərcləri olur, həmin xərclərin bir hissəsi bərpa işlərinə yönəldiləcək. İkincisi, bərpa prosesi mərhələli şəkildə olacaq. Bundan başqa, özəl sektor da bu işə sərmayə qoyacaq. Nəticə etibarilə büdcə dövlətə həmin xərcləri qarşılamaq imkanı yaradacaq. Eyni zamanda, bura beynəlxalq qurumların da cəlb edilməsi gözlənilir. Digər ölkələrin praktikası göstərir ki, belə hallarda beynəlxalq təşkilatlar da müharibədən sonrakı bərpa prosesində iştiraka maraq göstərirlər.

Proses mərhələli şəkildə həyata keçiriləcək, ona görə də hansı müddəti əhatə edəcəyini əvvəlcədən söyləmək çətindir. Nəzərə alsaq ki, həmin ərazilər tamamilə dağıdılıb və hazırda qiymətləndirmə gedir, işlər başladıqdan sonra konkret zaman söyləmək mümkün olacaq. Amma yəqin ki, bu proses bir neçə ili əhatə edəcək.

*V. Bayramov bildirib ki, 28 ildən artıq işğal altında olan torpaqlarımızda bütün infrastruktur dağıdılıb. Belə şəraitdə başlanğıc üçün infrastrukturun bərpası çox önəmlidir:*

- Nəzərə alsaq ki, işğalçı ölkə ərazilərimizdə minalar yerləşdirib, hazırda minaların təmizlənməsi proses davam edir. İnfrastrukturun tam formalaşdırılması bundan sonra həyata keçiriləcək. Biz artıq yol infrastrukturunun bərpası ilə bağlı cənab Prezidentin imzaladığı sərəncamların icrasına başlandığını görürük.

İqtisadçı qeyd edib ki, Qarabağ torpağı məhsuldardır. İşğaldan əvvəlki dövrdə Qarabağın əksər bölgələrində pambıqçılıq, taxılçılıq, üzümçülük, heyvandarlıq inkişaf etmişdi. Bu torpaqların məhsuldarlığını bərpa etmək mümkündür və ediləcək. Artıq Kənd Təsərrüfatı Nazirliyi də bununla bağlı qiymətləndirmələr aparır. Əlbəttə, yeni iş yerlərinin yaradılması, sənaye müəssisələrinin tikintisi həm yerli əhalinin işlə təminatına təkan verəcək, həm də investorları bölgəyə cəlb edəcək. Apardığımız sorğulara əsasən o ərazilərdən məcburi köçkün düşmüş vətəndaşlarımızın böyük hissəsi bərpa işlərindən sonra öz doğma torpaqlarına qayıtmaq istəyirlər. Onlar üçün yeni iş yerlərinin yaradılması vacibdir. Qeyd edim ki, aqrar sahədə torpağın məhsuldarlığının artırılması, əkin sahələrinin salınması üçün kənd təsərrüfatı üzrə ixtisaslı kadrlara ehtiyac var.

Biz artıq müşahidə etdik ki, Azərbaycan Prezidenti işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin planlı şəkildə aparılmasına necə diqqət edir. Prezidentin ilk fərmanlarından biri işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin təsis edilməsi ilə bağlı oldu. Bu, işğaldan azad edilmiş bölgələrdə dövlət strukturlarının bərpası deməkdir. Və əlbəttə ki, bərpa işlərində yerli əhali, həmçinin ölkəmizin bütün bölgələrindən vətəndaşlarımız iştirak edəcək. Biz bu meyli artıq müşahidə edirik.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# 12 ildir övladlarımızın başına "oyun açırlar"

*Təhsil Strategiyasını hazırlayanlar təhsilin durumundan xəbərsiz adamlardır*



"XXI əsr özü ilə, dünyada elm və təhsilə bütün istiqamətlərdə sürətli inkişaf gətirdi. Xüsusən də rəqəmsal və nano-texnologiyanın intensiv inkişafı nəticəsində yeni sənaye inqilabları bir-birini əvəz etdi".

**Bu sözləri "Şərq"ə açıqlamasında məktəb psixoloqu Famil Səfərov deyib. O qeyd edib ki, nə qədər paradoksal səslənsə də, yeni əsrin gəlişi ilə Azərbaycanda elm və təhsilin inkişafı əvəzinə onun tənəzzülü dövrü başladı:** "Ölkənin əsas elm ocağı olan Elmlər Akademiyasında və onun sahə İnstitutlarında vəziyyətin nə yerdə olduğu yəqin hər kəsə bəllidir. Böyük elmi potensialı olan, istedadlı və kreativ alimlər məlum səbəblərdən ölkəni tərk etdilər, onların yerini isə əsasən alimlik adı almaq xatirinə elmdə qurdalanan və "azərbaycansayağı" yollarla elmə gələn təsadüfi adamlar tutdular. Aydın məsələdir ki, bu elmi baza ilə bizim ali təhsilimiz və universitetlərimiz də ən yaxşı halda, dünya universitetləri arasında reytinq sıralamasında 700-dən aşağı yerdə olmalı idi. Əlbəttə, Azərbaycan elmində və universitetlərdəki bu durum öz növbəsində təhsildə də müvafiq neqativ izlərini qoymalı idi. Əvvəlcə oturuşmuş bir təhsil sistemini qısa zamanda alt-üst edib dağıtdıq, ardınca dövlətin külli miqdarda vəsaitini nəticəsinə əmin olmadığımız bir təhsil proqramının sıfırdan tətbiqinə gözümüzü yumub xərclədik. Ölkə təhsilinə tətbiq etdiyimiz kurikulum proqramının 12 ildi övladlarımızın başına gətirdikləri hər birinizə yaxşı məlumdur. Amma nə qədər qəribə səslənsə də bu təhsil proqramının tətbiqi metodikası, ümumiyyətlə, hələ yazılmayıb. Hərçənd, içərisi müxtəlif nəzəriyyələr və əcnəbi terminlərlə dolu "Kurikulum" kitabları yazılıb, amma dediyimiz kimi, bunlar yalnız elə nəticəsi sübuta yetməmiş ümumi nəzəriyyələrdir, ortada konkret təlim prosesini bütünlükdə özündə etiva edən metodik göstərişlər sistemi yoxdur". F.Səfərov təhsildə onu narahat edən daha bir məsələ barədə danışıb: "Azərbaycan Respublikasının Təhsil Strategiyası adlı bir sənəd var, yəqin eşitmisiniz. Onu kimlər tərtib edibsə, onlar bu ölkədəki təhsilin durumundan tamamilə xəbərsiz adamlar olublar. Əvvəlki müvafiq sənədlərdən və ondan-bundan tərcümə edib bir həftəbecər sənəd hazırlayıb, təsdiq edib atıblar. Çünki illərdir təhsili yönəldənlər heç sabah nə edəcəklərini bilmirlər, onlara strategiya nə lazımdır ki?! Nəhayət, ölkə təhsilində tamamilə unudulmuş bir məsələ haqqında: Pedaqoji sahədə çalışan işçilərin peşə fəaliyyətini tənzimləyən, onların hüquq və vəzifələrini konkret olaraq maddə və bəndlərlə özündə ehtiva edən bir sənəd, yəni əsasnamə olmalıdır. Nə qədər paradoksal və gülünc səslənsə də, bu sənəd də ölkə təhsilində ümumiyyətlə yoxdur".

**Aynurə Pənahqızı**

## Faciəni önləmək olardı

Bədbəxt hadisəyə xanımın məsuliyyətsizliyi səbəb olub



**Şabranda 21 yaşlı gənc ana zəhərlənmədən dünyasını dəyişib. Hadisə rayonun Ceyranlı kəndində baş verib. Mələykə Vahab qızı Yusifova hamilə olub və bətnindəki körpəni tələf etmək üçün həblərdən istifadə edib.**

Uşaq ana bətnində öldüyündən gənc ananın qanında zəhərlənmə baş verib və M.Yusifova vəfat edib.

21 yaşlı ana bətnindəki körpənin cinsinin qız olduğunu bilib və bu səbəbdən uşağı tələf etmək istəyib. Ananın bu hamiləlikdən əvvəl bir qız uşağının olduğu deyilir.

**Baş verənləri "Şərq"ə dəyərləndirən həkim-ginekoloq Elnurə Mustafayeva bildirib ki, xanımların bu mövzuda maarifləndirilməsi çox vacibdir:**

"Açıq-aydın görünür ki, dünyasını dəyişən qadın bilgisiz olub. Əlbəttə, həmin xanım məlumatlı olsaydı, belə hal yaşanmazdı. Ona görə də bu sahədə maarifləndirmə güclü olmalıdır. Xüsusilə həkimlərin aktivliyi vacibdir. Elə bir dövrdə yaşayırıq ki, sosial şəbəkələr vasitəsilə bəzi məlumatları rahat şəkildə əldə etmək mümkündür.

18 yaşına çatmış hər bir xanım öz orqanizmi barədə bilgiyə sahib olmalıdır. Qadın hamiləliyinin 10-cu həftəsinə qədər bilmirdi ki, arzuolunan övladdır, ya yox? Arzuolunan deyildisə, niyə hamilə qalırdı? Hamiləlikdən qorunmaq üçün ona uyğun olan təhlükəsiz vasitələrdən istifadə etməli idi. Bu, bütün xanımlara aiddir. Dövlətimizin yaratdığı qadın məsləhətxanaları var. Həmin müəssisələr pasiyentləri ödənişsiz qəbul edib, informasiya verir. Çox təəssüf ki, bədbəxt hadisənin baş verməsinə səbəb xanımın məsuliyyətsizliyi olub".

**Yeganə Bayramova**

# Dünyada 5-ci sənaye inqilabı baş verir

*"Bizdə isə alimlər kompüteri bilmirlər"*



"Artıq pandemiya dövrü öz mahiyyətini göstərir. İndi biz heyrətamiz bir dövrdə yaşayırıq. Texnologiyalarda radikal dəyişikliklər böyük sürətlə baş verir. Dünən fantastik hesab etdiyimiz layihələr üzərində bu gün artıq innovasiya şirkətləri çalışır, nailiyyətlər əldə edirlər. Hər ötən gün biz elə bir texnoloji inkişaf mərhələsinə çatırıq ki, həyatımızı yeni-yeni nailiyyətlərsiz təsəvvür edə bilmirik...".

**Bunları təhsil eksperti Kamran Əsədov özünün feysbuk hesabında yazıb.**

**Ekspert "Şərq"ə açıqlamasında bildirdi ki, dördüncü sənaye inqilabına hazır olmaq lazımdır:** "Yaxın günlərdə hər birimizin həyatını, xüsusilə də övladlarımızın həyatını 100 faiz dəyişəcək texnologiya olacaq. Başa düşməliyik ki, hazırda biz dördüncü sənaye inqilabına qədəm qoymuşuq. Daha dəqiqi, dünya qədəm qoyub, biz özümüzü qoymuş kimi göstəririk. Əgər birinci sənaye inqilabı buxar maşınının kəşfi ilə istehsalın mexanikləşməsi, ikinci sənaye inqilabı elektrik enerjisinin kütləvi istehsalı ilə sənayeləşmə, üçüncü sənaye inqilabı istehsalın avtomatlaşdırılması üçün elektronika, kompüterləşmə və informasiya texnologiyalarından kütləvi istifadəni nəzərdə tuturdusa, dördüncü sənaye inqilabı, yəni "Sənaye 4.0" rəqəmsallaşmanı, texnologiyaların birləşməsi və fiziki, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxmasını səciyyələndirir.

Artıq qədəm qoyduğumuz dördüncü sənaye inqilabında dəyişikliklərin xüsusiyyəti o qədər fundamentaldır ki, dünya tarixi həm böyük imkanlar, həm də potensial təhlükələrlə dolu olan buna bənzər bir dövrlə hələ qarşılaşmayıb. Bəs bu dördüncü sənaye inqilabında bizi nə gözləyir? İnsanın iştirakı olmadan idarə edilən avtomobillər, 3D çap, qabaqcıl robot texnikaları, yeni materiallar, genlərin redaktə edilməsi, əşyaların internet, insan bədəninə implantasiya edilmiş telefon, şirkətlərin rəhbərliyinin tərkibində süni intellekt, blokçeyn vasitəsilə verginin toplanması və daha nələr, nələr   Biz sənaye 4-ə hansı universitet, hansı məzun ilə gedirik? Kompüterdən istifadə edə bilməyən elmlər doktorları ilə? Yoxsa, kompüter, telefonla sosial şəbəkələrdə vaxt öldürən, şəkil çəkib paylaşan və mənasız videolara baxan tələbələrlə?"

**K.Əsədovun fikrincə, zamanın tələbinə uyğunlaşmaq zərurətdir:** "Dördüncü sənaye inqilabı miqyası, həcmi və mürəkkəbliyi baxımından, bəşəriyyətin bütün əvvəlki təcrübələrinin heç birinə bənzəmir. Qarşıda bizi süni intellekt, robot-avtomobillər, nanotexnologiya, biotexnologiya və s. daxil olmaqla ən geniş sahələrdə heyrətamiz texnoloji sıçrayış gözləyir. Bəs biz nə gözləyirik?

Dördüncü sənaye inqilabının artıq geniş vüsət almağa başlaması faktı təkcə internetə ümumi çıxışla kifayətlənmir. 2016-cı il Davos Dünya İqtisadi Forumunun yekun hesabatına görə, mobil cihazların, internet sensorların və s. hər yerdə yayılması, alış-verişdən tutmuş xəstəyə qulluğadək real vaxt rejimində ətraflı və dəqiq məlumatları əldə etməyə imkan vermişdir.

Hazırda "Sənaye 4.0" bağlantı xidmətləri, avtomatlaşma və süni intellektin geniş tətbiqi ilə davam edir. Biz bir ildir ki, dərsləri onlayn-distant qaydada keçiririk. Bəs öz platformamız, resurslarımız varmı? Yaradıldımı? Birmənalı şəkildə yox! Bir ildir ki, "Microsoft Teams" proqramından asılıyıq. Halbuki, 1 il ərzində dünyada 100-dən çox onlayn konfrans proqramı yaradılıb, milyardlarla dollar həcmində tədris resursları hazırlanıb.

Biz nə etmişik? Təhsildə "Yeni ulduz" müsabiqəsi keçiririk. Ali məktəblər "qayıb-qayıb oyunu" oynayır. Yenə də nə isə dəyişməyib. Deməli, Avropa X əsrdə universitetini yaradanda, biz hələ mədrəsədə idik.

Biz ilk ali məktəbi XX əsrdə yaratdıq. Avropa 1445-ci ildə kitab çap edəndə, biz 1920-ci illərdə savadsızlığa qarşı mübarizə idarəsi yaratmışdıq. 2021-ci ildə Amerika alimi Marsda tədqiqat aparanda, bizim alim çayxanada oturub çay sifariş edir və deyir ki, yanında "Mars" olsun".

*Onun sözlərinə görə, hər şeyi saniyələr həll edir:* "Sənaye 4.0" dövründə ölkələr infrastruktur inkişafına vəsait ayırır, geri qalmamaq üçün yatırımlar edir. Biz isə 190 manatın verilməsini tələb edirik. Rəqəmsal dövrdə əhəmiyyətli inkişafa nail olmağın, dördüncü sənaye inqilabı dövründə geri qalmamağın yollarından digəri isə ölkəmizdə biznes və tətbiqi elm arasında əməkdaşlığın gücləndirilməsi, innovasiya məkanlarının yaradılması, universitetlərin gələcəyin texnoloji inkişafını irəli aparmağa qadir olan mütəxəssislər yetişdirməsi, eləcə də, dövlət və özəl sektorlar arasında əməkdaşlığın gücləndirilməsidir.

Qəbul edin, dünya yeni mərhələyə daxil olub. Ya normal təhsil sistemi ilə prosesin iştirakçılarından biri olacağıq, ya da yenilik zamanı laboratoriya siçovulları kimi təcrübə vasitəsi olacağıq. Bir də deyirəm ki, biz bu universitetlər və onlayn məzunları ilə "Sənaye 4.0" də nəsə edə bilmərik.

Bu arada artıq "Sənaye 5" inqilabı da hazırdır".

**Kənan Novruzov**

# Hökumətin qorunmaq üçün hələ şansı qalır

## *Devalvasiya baş verərsə fəsadları çox olacaq*

Artıq bir neçə gündür ki, ABŞ dollarının Türkiyə lirəsinə qarşı məzənnəsi yüksəlməkdə davam edir. Bu, Azərbaycanda da insanlar arasında narahatlığa səbəb olmaqdadır. Bu gün hər kəsi düşündürən bir sual var: Azərbaycanda yaxın müddətdə devalvasiya gözlənilirmi?

**İqtisadçı-ekspert Eldəniz Əmirov "Şərq"in suallarını cavablandırıb. Ekspert bildirib ki, ötən ilin əvvəllərindən pandemiya səbəbindən neft qiymətlərinin ucuzlaşması səbəbindən devalvasiya ehtimalı əsas gündəmə çevrilmişdi.**



"Təcrübə onu göstərir ki, qonşu ölkələrdə onların milli valyutalarının ucuzlaşması bizim ölkədə valyuta axınına şərait yaradır"

E.Əmirov qeyd edib ki, hökumət bu müddət ərzində makroiqtisadi sabitliyi qorumaq üçün manatın məzənnə stabilliyinə çox önəm verirdi. Buna görə də fiskal və monitar siyasət üzrə effektiv koordinasiya səviyyəsini artırırdı: "Eləcə də valyutanın xarici axınına müəyyən məhdudiyyətlər qoyulurdu. Başqa sözlə, ölkədən valyuta çıxışına inzibati və iqtisadi metodlarla maneələr yaradırdı ki, manata olan təzyiq azaldılsın. Lakin 2020-ci ilin sonundan başlayaraq neftin qiymətlərində olan artım tempi devalvasiya olmayacağı ilə bağlı insanlarda bir növ rahatçılıq yaratmağa başladı. Çünki devalvasiyanın olmasına əsas səbəblər bilavasitə tədiyyə balansında olan vəziyyətlə çox bağlı olur. 2021-ci ildə də neft gəlirlərinin qiyməti büdcədən formalaşarkən neftin qiyməti 40 dollar nəzərdə tutulmuşdu. Lakin hazırda neftin satış qiyməti 60-70 dollar arasında dəyişdiyindən, bu, büdcədə tutulmuş qiymətdən 50-60 faiz artıq bir qiymət deməkdir. Bu isə ümumiyyətlə, tədiyyə balansında müsbət istiqamətdə irəliləyişlərin olması deməkdir. Hökumətin devalvasiyaya getməməsi üçün kifayət qədər şans yaradır".

**Ekspertin sözlərinə görə, devalvasiyanın həm müsbət, həm də mənfiləri mövcuddur:** "Devalvasiya gediləcəyi təqdirdə onun müəyyən müsbətləri var. Məsələn, devalvasiya turizm sahəsində əldə olunan gəlirlərə müsbət təsir göstərə bilər. Bir şərtlə ki, ölkəyə kifayət qədər turist axını olsun. Eyni zamanda devalvasiya həm də bilavasitə ixracı stimullaşdırır. Amma nəzərə alaq ki, hazırkı pandemiya dövründə bizim ixrac məhsullarımız o qədər də çox deyil. Ona görə də biz devalvasiyaya getməklə bu istiqamətdə əldə edəcəyimiz fayda çox cüzi olar. Habelə, turizm sahəsi demək olar ki, iflic vəziyyətdədir. Yəni turistlərdən ölkə üçün faktiki olaraq əldə olunan gəlir hazırkı vəziyyətdə minimum səviyyədədir. Deməli, devalvasiyanın bizə verəcəyi faydalar hazırda çox aşağı səviyyədədir. Lakin devalvasiyanın gətirəcəyi mənfilər isə son dərəcədə çoxdur. Sadəcə olaraq hazırkı vəziyyətdə devalvasiyaya getməklə hökumət ancaq dövlət büdcə kəsirində olan vəziyyəti yaxşılaşdıra bilər. Necə? Məsələn, belə deyək, hazırda bizim 3,1 milyardlıq bir büdcə kəsirimiz var. Hökumət bu 3,1 milyardlıq büdcə kəsirini formalaşdırmaqdan ötrü tutaq ki, 1,7 manata olan dolları devalvasiyaya gedərək iki manata qaldırdı. Onda 30 qəpiklik manatın ucuzlaşması baş tutacaq. O zaman nə baş verəcək? 10 milyardlıq dollarlıq bir vəsaiti hökumət manata çevrirərək, 17 milyard manat əldə edərək büdcəyə yatıracaq. Amma dollar iki manat olarsa, o zaman hökumət sadəcə olaraq 30 qəpiklik devalvasiyadan istifadə edərək 10 milyard dolları 20 milyard manata çevirəcək. 20 milyarda çevirdiyi zaman avtomatik 3 milyard manat əlavə vəsait əldə etmiş olacaq. Yəni 30 qəpiklik bir devalvasiya ilə hökumət bu il olan büdcə kəsirini demək olar ki, bağlanmış olacaq. Lakin devalvasiya özündən sonra elə bir ciddi problemlər yarada bilər ki, hökumət heç 3 milyardla deyil, daha böyük fəsadlarla üzləşə bilər. Bu fəsadların aradan qaldırılması üçün daha böyük vəsaitə və daha çox resurslara ehtiyac duyulacaq. İqtisadiyyatın əksər sahələri ciddi zərər görmüş olar. Buna görə də, hökumət əvvəldə qeyd etdiyim kimi, makroiqtisadi sabitliyi əsas götürür. Makroiqtisadi sabitliyi saxlamaqdan ötrü də manatın məzənnə stabilliyinə önəm veriləcək. Bu baxımdan düşünmürəm ki, bizdə devalvasiya bu ilin sonuna qədər olsun. Hazırkı vəziyyətlər bunu diktə edir".

*E.Əmirov türk lirəsinin ucuzlaşmasına da münasibətini bildirib:* "Türk lirəsinin ucuzlaşmasının təbii olaraq bizə mənfi təsirləri olacaq. Lakin türk lirəsinin ucuzlaşması Azərbaycanda da devalvasiyanın olacağı ilə bağlı fikirlərə gətirib çıxarmamalıdır. Çünki lirənin ucuzlaşması müəyyən mənada təbii ki, bizim orda ixrac etdiyimiz məhsulların türk məhsullarına rəqabətdə uduzmasına səbəb olacaq. Düzdür, lirənin ucuzlaşması ilə bizə gələn türk mallarının qiyməti aşağı olacaq. Bu da Türkiyədən bizə gələn malların daha ucuz qiymətə satılmasına gətirib çıxaracaq ki, bu da ilk növbədə istehlakçılar üçün sərfəli olacaq. Yəni türk məhsullarının əmtəələrinin aşağı olması kimi qiymətləndirilə bilər. Bu onun müsbət tərəfidir. Lakin mənfi tərəfi odur ki, eyni çeşiddən, eyni spesifikasiyadan olan bizim məhsullarımız məhz ucuz başa gələn türk məhsullarına rəqabətdə qiymət baxımından uduzacaq.

**Ekspertin sözlərinə görə, təcrübə onu göstərir ki, qonşu ölkələrdə onların milli valyutalarının ucuzlaşması bizim ölkədə valyuta axınına şərait yaradır:** "Başqa sözlə, bizim ölkədən valyuta çıxarılaraq həmin ölkələrdə daha çox daşınmaz əmlak sahiblənmə istəyini artırır. Bu da ölkəmizdən kütləvi valyuta axını deməkdir. Təbii olaraq bu da dolayı yolla manata olan təzyiqi artırmış olur. Ona görə də 2015-ci ildə olan valyuta axını kimi bir axının olmaması üçün hökumət qabaqlayıcı tədbirlər görməlidir. Biz hazırda bu istiqamətdə müəyyən qabaqlayıcı addımların atıldığını da müşahidə etməkdəyik".

**Aynurə Pənahqızı**

# Ehtiyatsızlığın qurbanları artır

## *Təhlükəli yerlərdə mütləq xəbərdarlıq nişanları olmalıdır*

Martın 25-i axşam saat 7 radələrində Gədəbəy rayon Kərimli kənd sakini, 1969-cu il təvəllüdlü Hüseynov Şaiq Hüseyn oğlu elektrik cərəyanı vurması nəticəsində ölüb. Gədəbəy rayon prokurorluğundan verilən məlumata görə, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər zəruri tədbirlər yerinə yetirilib.



Araşdırmalar nəticəsində Ş.Hüseynovun kənd ərazisində elektrik enerjisinin kəsilməsi səbəbindən transformatora müdaxilə edərkən elektrik cərəyanının təsirinə məruz qalaraq ölməsi müəyyən edilib.

Hazırda fakt üzrə Gədəbəy rayon prokurorluğunda araşdırma aparılır.

**Məsələyə münasibət bildirən təhlükəsizlik qaydaları üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə bildirdi ki, "Evdə işıqlar söndü, gedim elektrik dirəyinə çıxım düzəldim" kimi düşüncələr yanlışdır:**

"Transformatordan gərginliyin artıb-azalması nəticəsində qığılcım, gərginliyin səsi gəlir ki, insanlar transformatorun ətrafına toplaşır, buna müdaxilə etmək istəyirlər. Ancaq bu, olduqca təhlükəlidir. Yaxud transformatorun içərisinə girib orada hər hansı təmir işlərinin aparılması yalnız xüsusi attestasiyadan keçmiş mütəxəssislər tərəfindən aparılır. İcazəsi olan şəxslər hər il attestasiyadan keçir və onlara yüksək gərginlikdə işləməyə icazə verilir. Yəni hər elektrikin belə transformatora girməsinə icazə yoxdur. Ancaq təəssüflər olsun ki, bəzən heç elektrik olmayan şəxslər öz həyat və sağlamlıqlarını təhlükəyə atırlar. İnsanların bu məsələdə daha diqqətli olması lazımdır".



**Ekspert E.Nurəliyev elektrik təchizatı ilə bağlı qaydalara çox ciddi əməl olunmasını da qeyd etdi:** "Elektrik təchizatı ilə bağlı olan təhlükəsizlik qaydalarına çox ciddi yanaşılmalıdır ki, qəzalar, insanların ağır xəsarət almaları və nəticədə bədbəxt hadisələrin baş verməriski olmasın. Transformatorların yerləşdiyi binaya daxil olmaq və ya ona toxunmağın həyat üçün nə dərəcədə təhlükəli olduğunu gərək insanlar başa düşsün. İnsanların təhlükəsizlik qaydalarını bilməməsi və yaxud təhlükəsizlik qaydalarına biganə yanaşmaqları sonda bədbəxt hadisələrə səbəb olur. Gərək aidiyyəti qurumlar da məsələyə ciddi yanaşsınlar. Transformatorların yerləşdiyi binanda mühafizə zolağı təşkil olunmalı, içəriyə kənar şəxslərin rahat girişi məhdudlaşdırılmalıdır. İnsanların rahat görəcəyi yerdə xəbərdaredici traparetlər olmasını təmin etməlidir. "Yaxınlaşmayın, yüksək gərginlik var" və ya "Ehtiyatlı olun" kimi lövhələr vurmaqla insanları xəbərdar etmək olar. Demək olar çox yerdə quraşdırılan transformatorlar hasara alınıb, kənar şəxslər içəri daxil ola bilmirlər. Ancaq hasara alınmayan yerlər də olduğundan, yaxud da qoruyucu hasar yararsız olduğundan insanlar üçün təhlükə yaranır. Xüsusən də uşaqlar üçün. Uşaqlar transformatorun ətrafında oynayır, hətta içərisinə daxil olur. Bu da sonda bədbəxt hadisəyə səbəb olur. Transformatorların yerləşdiyi binaya daxil olmaq və ya ona toxunmağın insan həyatı üçün nə dərəcədə təhlükəli olduğu izah edilməlidir. Adi elektrik cərəyanının insanı vurması zamanı onun aldığı xəsarət hətta ölümə səbəb olur. Transformatorlarda isə adi elektrik xətlərindən dəfələrlə çox yüksək gərginlik olur ki, bunun da insana yetirəcəyi zərərin dərəcəsini düşünmək çətin deyil.

İdarə, müəssisələr, fabriklər və s. sahibkarlıq subyekləri də özlərinin quraşdırdığı transformatorları nəzarətsiz qoymalı deyil. Kənar insanların da təhlükəsizliyini nəzərə alıb transformatorları qoruyucu hasara almalıdırlar".

**Ağarza Elçinoğlu**

# “Qapanmalar çarə deyil, olmayacaq da”

Turan İbrahimov: ”İnsanlar bu virusla, məsuliyyəti öz üzərinə götürərək yaşamağı öyrənməlidirlər”



"Qapanmalara getməliyik, sərt karantin rejimi bərpa olunmalıdır və s. deyən hər kəs sussun, getsin özünü qapatsın!"

**”Şərq” xəbər verir ki, bu sözləri feysbuk səhifəsində tanınmış aparıcı Turan İbrahimov yazıb. O, fikirlərinə bunları da əlavə edib:**

”Düz bir ildir, qapanmışıq, uğursuz nəticə göz qabağındadır. Deməli, tədbirli şəkildə, normal həyat tərzini davam etdirməklə bu zəhrimar virusla mübarizə metoduna keçmək lazımdır. Dövlət öz tədbirini görsün, amma məsuliyyəti cəmiyyətlə də bölüşsün. Qapanmaq virusdan qoruya bilər, lakin işsizliyin, yoxsulluğun, çarəsizliyin və bekarçılığın yaratdığı mənəvi, psixoloji problemlərin əsas səbəbidir. Nəticəsi isə virusdan qat-qat ağır və dağıdıcıdır. Cəmiyyət üçün də, elə dövlətin özü üçün də.

Sərt karantin rejiminə getmək, qapanmalar çarə deyil, olmayacaq da. Bir daha vurğulayıram. İnsanlar bu virusla, məsuliyyəti öz üzərinə götürərək yaşamağı öyrənməlidirlər. Hətta artıq öyrəniblər. Dövlət isə gedişatı izləyib öz tədbirlərini görməlidir. Virusa yoluxanların sürətli və effektiv müalicəsini təşkil etməlidir, peyvəndlənməni davam etdirməlidir. Başqa çıxış yolu yoxdur!

Yox, Operativ Qərargah qapanmalara gedəcəksə, onda dövlət də zəhmət çəkib növbəti dəfə əlini cibinə salsın. Orta və kiçik biznesə real dəstək olsun, maddi sıxıntı çəkən hər bir vətəndaşın minimal xərclərini, birbaşa, qeyd-şərtsiz ödəsin. Yox, bu mümkün deyil, dövlətin yükü həddindən artıq çoxdur deyiriksə, o zaman insanları rahat buraxmaq, işləyib özünü dolandırmasına şərait yaratmaq lazımdır”.

**Samirə Ərəblinski**

## "Kasıb insan deyil, ölməlidir?"

Günel səhiyyə sisteminə üsyan etdi





**Müğənni Günel Ələkbərova səhhəti ilə bağlı problemlər yaşayır. O, instaqram səhifəsində paylaşdığı videoda özündə koronavirusun əlamətlərinin olduğunu söyləyib.**

**”Şərq” xəbər verir ki, G.Ələkbərova üç gündür vəziyyətinin ağır olduğunu xüsusi vurğulayıb:** ”Ev şəraitində müalicə olunuram, amma sağlıq durumum yaxşı deyil. Özümü pis hiss edirəm. COVİD testinin cavabı gəlməyib. Bilmirəm, koronavirusa yoluxmuşam, ya yox.

Ölkəmizdə səhiyyə sistemi bərbaddır. Xəstələrə vaxtında müdaxilə etsələr, yoluxanların sayı artmaz, insanlar həlak olmazlar. Allah ölənlərə rəhmət eləsin. Günahkar Səhiyyə Nazirliyinin əməkdaşlarıdır, TƏBİB-dir.

İnsan həyatı bu qədərmi ucuzdur? Söz tapmıram. Allahdan qorxun. İnsanların həyatı ilə oynamayın. Kasıblar var, bilmirəm, o yazıqlar necə müalicə olunurlar? Səhiyyə Nazirliyi yoluxanları təmənnasız müayinə etməlidir. Camaatın çörək almağa pulu yoxdur. Adicə tibbi yoxlanış, müayinə 200-300 manata başa gəlir. Kasıb insan deyil? Yaşamağa haqqı yoxdur? Ölməlidir? Bir az vicdanlı olun”.

**Samirə**

## “İmkan verməyəcəyik ki..."

“Ucuz, şit mahnılarla millətimizin zövqünü, mənəviyyatını korlasınlar”



**”Bayağı mahnı ifa edənlərin ömrü çox olmayacaq. Çünki bizim gənc sənətkarlarımız - Mirələm Mirələmov, Babək Niftəliyev, Ehtiram Hüseynov var”.**

”Şərq ” xəbər verir ki, bu sözləri ARB TV-nin ”Heç vaxt heç yerdə” verilişində xanəndə İlkin Əhmədov deyib. O, bayağı müğənnilər haqqında danışaraq bunları söyləyib:

”İmkan verməyəcəyik ki, ucuz, şit mahnılarla millətimizin zövqünü, mənəviyyatını korlasınlar. Kabinet mahnıları böyük səhnəyə yaxın gələ bilməzlər”.

**Samirə**

## Zahidə Günəşin oğlu 11 ildir atasını görmür

“Ehtiyac da yoxdur. Onun atası da, anası da mənəm”



**”Həmin Zaur” verilişində qonaq olan müğənni Zahidə Günəş ailə məsələləri ilə bağlı danışıb.**

*”Şərq”in məlumatına görə, onun oğlunu 11 ildir ki, atası ilə görüşdürmədiyi məlum olub. Bu barədə aparıcı Zaur Kamal müğənniyə sual ünvanlayıb. O isə bunları söyləyib:* ”Oğlumun atası yaxşı insandır. Bu günə qədər övladımı təkbaşıma böyütmüşəm. Ürəyi istəsə, atasını görə bilər. Oğlum mənimlə, mən də onunla nəfəs alıram”.

**Zaur Z.Günəşə ”Qabaqlar çox qətiyyətlə deyirdiz ki, atasını görə bilməz:** ”Mənə həyat yoldaşım zülmlər verib”. Amma indi yumşalmısınız” deyərək müraciət edib. Müğənni isə aparıcıya belə cavab verib: ”Çünki ömür qısadır, həyat insana hər şeyi öyrədir. Oğlumun 11 yaşı olacaq. Atası efirlərdə görüb. O da istəyirmi, bilmirəm. Ehtiyac da yoxdur. Onun atası da, anası da mənəm. Daha çox danışmaq istəmirəm. Mən xoşbəxtəm. Kimsə kimləsə düşmənçilik etməsin. Arzum budur ki, hamı yaxşı olsun”.

**Samirə**

# Vaxt daralır



Həcc ziyarətinin baş tutmaması ehtimalı böyükdür

"Bu il də Həcc ziyarətinin təşkili mümkün görünmür. Mövcud şərtlər bunu deməyə əsas verir ki, bu il də Həcc ziyarəti baş tutmaya bilər". Bunu "Şərq"ə ilahiyyatçı Hacı Atif İsmayılov deyib. İlahiyyatçı qeyd edib ki, Qafqaz Müsəlmanları İdarəsi Həcc ziyarəti ilə bağlı Səudiyyə Ərəbistanından heç bir məlumat verilmədiyini açıqlayıb.

Həcc ziyarəti üçün müraciətlərin qəbuluna yalnız Səudiyyə Ərəbistanından müvafiq bildiriş gəldikdən sonra başlanılır. Hələ ki, belə bir bildiriş və ya məlumat daxil olmadığından Həcc ziyarətinin təşkil olunub-olunmayacağı barədə dəqiq söz demək də mümkün deyil. Bu məzmunlu bildiriş yaxın günlərdə daxil olmazsa, bu, ziyarətin bu il də baş tutmayacağı anlamına gələcək. Çünki zaman daralır. ”Dünyada gedən proseslər, eyni zamanda Azərbaycanda da koronavirusa yoluxmada yaranmış mövcud vəziyyət Həcc ziyarətinin yerinə yetirilməsini çətinləşdirir və hətta mümkünsüz edir. Dinimizdə Həcc əməli ilə bağlı konkret şərtlər mövcuddur. Həcc əməli üçün maddi imkanla yanaşı təhlükəsizlik şərti də önə çəkilir. Rəbbimiz o halda bəndələrinin Həcc əməllərini yerinə yetirməsini vacib sayır ki, buna onların gücü yetsin. ”Gücü yetsin” deyildikdə isə, təkcə maddi imkanlar deyil, yaş həddi, xəstəliyin olub-olmaması, bu əməllərin yerinə yetirilməsinə zəvvarın səhhətinin imkan verməsi də daxildir. Əgər pandemiyada sönmə müşahidə edilməzsə, yoluxma sayında azalma baş verməzsə, şəraitə uyğun davranılmalıdır. Hazırda ərəb ölkələrində də virus yayılır. Ona görə də mövcud vəziyyəti nəzərə alaraq, deyə bilərik ki, bu il də Həcc ziyarətinin baş tutmaması ehtimalı böyükdür”. İlahiyyatçı qeyd etdi ki, əgər Həcc ziyarətinə icazə verilərsə, zəvvarlardan mütləq qaydada peyvənd olunmaq tələb ediləcək. Zəvvarlar peyvənd vurduqlarına dair sənədi təqdim etməli olacaqlar. Bu da yetərli deyil. Hər bir zəvvar gigiyena qaydalarına ciddi riayət etməli, karantin şərtlərinə əməl etməli olacaq.

*Qeyd edək ki, bu il Həcc ziyarəti sentyabr ayına təsadüf edəcək.*

**Məlahət Rzayeva**

## Tolik intiharlardan yazdı, sərt cavab aldı

“Hər şeyi valideynin üstünə atmayaq”

**Prodüser Tarix Əliyev instaqram səhifəsində son zamanlar baş verən intihar hadisələrinə münasibət bildirib. O, ” İntiharlara dur deməyin vaxtıdır! Valideynlər, övladlarınızı incitməyin. Onlarla dost olun” deyərək reaksiya verib.**

*”Şərq”in məlumatına görə, onun postuna onlarla rəy yazılıb.* ”Abbas.muhammad_” adlı izləyicisi isə Tolikin paylaşımına ”



Özünüz həmişə danışırsınız ki, yeniyetmə ikən ananız telefon almır deyə qolunuzu kəsmisiz. Ananız da gedib kreditlə telefon alıb. Bu yazıq valideyn nə etsin? Maaşımız uşağın istədiyini almaq, onu dilədiyi kimi geyindirib, gəzdirmək üçün yetərli deyil. Yoxdur demək də uşaqda valideynə qarşı aqressiya yaradır. İndiki uşaqlar isə bir qıraqda dur deyən kimi küsürlər. Hər şeyi valideynin üstünə atmayaq. Bilirəm indi intihar etmiş gəncin ataanası nələr çəkirlər. Onları qınayıb daha da betər etməyək” komentini əlavə edib. T.Əliyev isə izləyicisinin şərhini belə cavablandırıb: ”Qələt etmişəm, kaş etməzdim. Amma uşağı döyüb, qorxuya salmaq olmaz”.

**Samirə**

# Son qəbilə

## Genləri heç dəyişməyib



(Əvvəli səh: 16-da)

Ancaq bunların heç biri indiyədək sübut edilməmişdir. Məsələn, alman alimi və şərqşünas Fridrix Maks Müller aryaların Avropaya fəth yolu ilə gəlib məskunlaşan Orta asiyalıların nəsilləri olduğuna inanırdı. Sonralar nasistlər bu nəzəriyyədən təbliğat aparmaq üçün istifadə etdilər.

Broqpa xalqına görə isə onlar Makedoniyalı İskəndərin və Asiyanı fəth edən əsgərlərinin nəsilləridir. Eyni nəzəriyyə Pakistandakı Kalaş qəbiləsi üçün də irəli sürülmüş, lakin DNT testləri uğursuz olmuşdur. Üçüncü nəzəriyyə isə Brogpanın VII əsrdə Karakorum dağlarının ətəyindəki vadilərə köçüb məskunlaşan ilk insan olduğunu göstərir. Ariyalıların fiziki xüsusiyyətləri Ladaxda yaşayan Tibet-Monqol əsilli olanlardan daha çox avropalıların xüsusiyyətlərinə bənzəyir. Broqpa ənənəsinə görə qəbilə və ya kastlararası nikah qadağandır. Danışdıqları Broksat dili heç vaxt dəyişməyib. Həm də geyimlərində və zinət əşyalarında adət-ənənələrini yaşatmağa diqqət yetirirlər. Lakin son 10 ildə internetin meydana çıxması onların adət-ənənələrini qorumağını daha çətinləşdirib. Artıq gənc Aryanlar kənardan evlənir, şəhərlərə köçür və Qərb tərzində geyinir. Animist Aryanlar arasında Buddist inam artmaqdadır. Vadidə hər il yeni monastırlar tikilir. Müasir dəyişikliklər Aryan mədəniyyətinə təsir etsə də, bir yandan bu onlara daha yaxşı sağlamlıq, təhsil və iş imkanları ilə təmin edir. Beş il əvvəl bölgəyə gələn əcnəbilərin girişinə qoyulan məhdudiyyətlərin ləğvi turistləri və pul axınını sürətləndirdi. 5 kənd iki ildir təşkil etdikləri festivallarla mədəniyyətlərini xarici dünyaya tanıtdırırlar. Broqpa mədəniyyətinin qorunmasında qadınların və onların ənənəvi geyimləri böyük əhəmiyyət daşıyır. Festivallarda ənənəvi evlilik mərasimləri də sərgilənir. Gəlinlər üzlərini kağız çiçəklərlə örtürlər.

> Onlar Kəşmir savaşına görə aralıqda qalıb və demək olar ki, ətrafla bütün əlaqələri kəsilib

**Aynurə Pənahqızı**

# Valideynlər dönə-dönə düşünməlidir

## Ailədaxili problemlər gəncləri özünəqəsdə sürükləyir



Mart ayının 29-u səhər saatlarında Sumqayıtda intihar hadisəsi baş verib. Belə ki, özünəqəsd edən 18 yaşlı Könül Misirli Sumqayıt Dövlət Universitetinin tələbəsi imiş. Məlumata görə, o, Sumqayıt şəhər 4 nömrəli tam orta məktəbdə təhsil alıb. Buraxılış imtahanında ən yüksək bal toplayaraq məktəb üzrə birinci yerə çıxıb. Azərbaycan Universitetlərinə qəbul imtahanında isə birinci ixtisas qrupu üzrə 618 bal yığıb.

İlkin məlumata görə, K.Misirli Bakıda universitetlərin birinə daxil olsa da, ailəsi onun paytaxta gedib-gəlməyinin çətin olacağını düşünərək qızın Sumqayıt Dövlət Universitetini seçməsini istəyib. Könül Misirli Sumqayıt Dövlət Universitetinin Riyaziyyat fakültəsinin birinci kurs tələbəsi olub. Əlaçı olan Könül həm də qrup nümayəndəsi imiş. Təhsil Nazirliyinin "Gələcəyin müəllimi təqaüdü"nə layiq görülüb. Bundan savayı, əlaçı olduğuna görə ona universitetin xüsusi təqaüdü də verilib.

Qeyd edilir ki, intihar etmiş tələbə dünən axşam saat 10 radələrində qrup yoldaşları ilə əlavə onlayn dərsdə də iştirak edib. K.Misirlinin martın 31-də 18 yaşı tamam olacaqdı.

**Sözügedən hadisə ilə bağlı "Şərq"ə danışan psixoloq Lalə Əliyeva bildirdi ki, hazırkı intihar hallarının əksəriyyəti ailədaxili problemlərlə bağlıdır:** "Dəfələrlə intihar mövzusu ilə bağlı müzakirələr, maarifləndirmə tədbirləri aparılmasına baxmayaraq günbəgün artan özünəqəsdlər azalmaq bilmir. Gəncləri intihara sürükləyən səbəb nədir? Nəyə görə məhz son çıxış yolu kimi intiharı düşünürlər?

Əslində bu problemin altında çoxlu səbəblər var; uğursuz ailə, tənhalıq, nəzarətsizlik və s. İlk növbədə təbii ki, ailədaxili problem dayanır. Yaxınları ilə yaranmış problemlər, valideynlərin övladları ilə düzgün formada münasibət qurmaması, onun daxili aləmini nəzərə almadan övladına qadağalar, məhdudiyyətlər qoyması sonda valideyn-övlad münasibətində narazılıqlara gətirib çıxarır ki, nəticədə gənc problemin son çıxış yolunu ya evi tərk etməkdə, ya da intiharda görür. Yeniyetmələr üçün intihara cəhd bir növ kömək üçün çağırış, özünə diqqət cəlb etmək və ətrafdakıların diqqətini qazanmaq məqsədi daşıyır. Bu hallara səbəb olan digər amil isə şəxsin öz həmyaşıdları ilə yaşadığı problemlər *(alçaldıcı, qorxuducu münasibət)* ola bilər.

Son zamanlar isə bu problemin daha çox müzakirəsi, mövzu ilə bağlı aparılan televiziya verilişləri və insanlar arasında olan söhbətlər gənclərə təbii ki, əks təsir göstərir. Diqqət yetirsək, intihar edən şəxslər arasında bu halın bir növ təqlidçilik xarakter daşıdığını görə bilərik. Ölümün ətrafdakılarını necə qorxutduğunu və bunun intiqam almaq üçün yaxşı vasitə olduğunu zənn edirlər. Bu halların qarşısını almaq üçün əsas amil yenə ailə faktorudur. Ailə tərəfindən gənc dəstəkləndiyi halda, valideyn övladı ilə vaxt keçirdikdə, düzgün münasibət yarandıqda bu halların baş verməsi minimum səviyyəyə düşür".

> "Onlar da intiqam almaq üçün ən yaxşı vasitənin intihar olduğunu düşünürlər"

**Ağarza Elçinoğlu**

### Təbrik edirik!



Ata-anasının ilki, ailənin sevinci, dünyaya gəlişi ilə babasına, nənələrinə əvəzolunmaz səadət bəxş edən **Emil 2 yaşına qədəm qoyur.** Bir evdə körpə nəfəsi, körpə səsindən gözəl nə ola bilər ki! Emil də ailənin göz bəbəyi, hamının sevimlisi, sevinc qaynağıdır. Gözlər, nəzərlər daim onun üzərindədir. Allahın izni ilə Emil böyüyüb boya-başa çatanda, ata-anasına layiqli övlad olacaq. Babasının, nənələrinin dayağı, gücü, qüvvəti olacaq. Bu günsə hələ ki, 2 yaşlı şirin-şəkər balamız uşaqlığının xoşbəxt günlərini yaşayır. Allah onun da, ailəsinin də bu sevincli günlərinin ömrünü uzun və sağlıqlı etsin.

Bu təbriki Emilə ad günü münasibətilə atası Turqut, anası Yəmən, babası Aydəmir bəy, böyük nənəsi Salatın xanım, nənələri Fazilə xanım, Tovuz xanım, əmisi Ozal bəy ünvanlayır. **Bəxtəvər olsun, həyatı xoşbəxt keçsin. Ölkəmiz üçün gərəkli, ləyaqətli oğul olsun.**

### Elan

Nəqiyeva Ziyafət Bayram qızına məxsus, Reyestr nömrəsi 506011000059-05101-093002 olan Daşınmaz Əmlakın Texniki Pasportu və 0215986 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Kəndli Partiyasının Nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və partiyanın möhürü itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Demokratik Sahibkarlar Partiyasının Nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və partiyanın möhürü itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın dəstəyi ilə keçirilən "Karabakh is Azerbaijan" onlayn şahmat seriyası başa çatdı

**"Nar"ın dəstəyi ilə chess.az saytının keçirdiyi "Karabakh is Azerbaijan" onlayn şahmat seriyası başa çatıb.**

Böyük finala vəsiqə qazanmış ən yaxşı 10 şahmatçı arasında gedən mübarizədə Elnur Mehtiyev birinci yerin qalibi olub. İkinci və üçüncü yerlərin sahibləri isə müvafiq olaraq İsmayıl Qurbanov və Şəhriyar Rəhmanov olub. İlk üç yeri tutmuş şahmatçılar "Nar" tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıblar.

*Qeyd edək ki, iki aydır davam edən seriyada Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna və Hindistandan ümumilikdə 264 şahmatçı iştirak edib. 8 turnirdən və böyük finaldan ibarət seriyada turnirlərin hər biri Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş rayonların adını daşıyıb. Seriya lichess.org şahmat platforması üzərindən keçirilib.*

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 578



# “Texnoloji çoban"...

600 keçidən ibarət sürünü dronla izləyir

**Türkiyənin Bodrum şəhərində çobanlar işlərini asanlaşdırıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, "texnoloji çoban" 600 keçidən ibarət sürünü dronla izləyir.

# Yarım əsr sonra qarajdan çıxarıldı

Son vəziyyəti şok etdi





**Bir qrup klassik avtomobil həvəskarı, uzun zamandır köhnə bir avtomobili yeniləmək üçün proyekt hazırlayırdı.**

Bu planlarının nəticəsində rusların milli avtomobili olan "Moskviç" modelini seçiblər.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, uzun axtarışlardan sonra 50 ildir qarajda "yatan" köhnə bir "Moskviç" tapıblar.

Hər yanı çürümüş, pas basmış, dəmir-dümür olan avtomobil qarajdan çıxarılıb və yeniləmə işlərinə başlanılıb.

Avtomobil çox yararsız olduğundan onun ələ gəlməyəcəyini deyənlər də tapılıb. Lakin "Moskviç"in son halı hər kəsi şoka salıb. Avtomobil artıq yollara dönüb. "Moskviç"in yenilənmə şəkli ictimai mediadan paylaşılıb.

**Turan**

# Pişik xəstə balalarını həkimin qəbuluna gətirdi



**Türkiyənin İzmir şəhərində qəribə hadisə yaşanıb.**

"Haber Global"ın məlumatına görə, pişik 3 balasını şəhərin Səhiyyə İdarəsinə gətirib və miyoldayaraq yardım istəyib.

İdarə əməkdaşları bala pişiklərin gözlərində infeksiya olduğunu görərək, onları müalicə ediblər.

*Müalicədən sonra ana pişik yenidən balalarına sahib çıxıb.*

# 700 illik tarixi olan qılınc tapılıb



**Bu günə qədər Osmanlı tarixinə aid ən qədim əsərin Orxan Qazinin dəbilqəsi olduğu düşünülürdü.**

Ancaq Türkiyə Milli Müdafiə Nazirliyinin araşdırması nəticəsində Mihaln Qaziyə məxsus 700 illik bir qılınc tapılıb. Bununla bağlı açıqlamada qılıncın sahibi və tarixi barədə məlumat verilib: "Qılınc tariximiz üçün çox əhəmiyyətlidir. Mihal Qazi Bizansın təfəkkürlü biri idi. Əsir düşəndən sonra etdiyi qəhrəmanlıq sayəsində Osman Qazi tərəfindən bağışlanıb və sonra da Abdullah adını alıb". Təxminən 700 yaşında olduğu deyilən qılınc "Hərbiyyə Hərbi Muzeyi və Mədəniyyət Sahəsi Komandanlığı"nda sərgilənir.

**Ağarza**



# Son qəbilə

*Genləri heç dəyişməyib*







**Dünyada xeyli sayda qəribə görünüşlü insanlar və həmin insanların cəmləşdiyi müxtəlif inanclı tayfalar mövcuddur.**

Belə tayfalardan biri də genləri dəyişməyən Aryan qəbiləsidir. Bu qəbilə Hindistanın Ladax bölgəsində yaşayır. Onların genlərinin heç dəyişmədiyi bildirilir. Aryan sözünün mənasının isə "soylu kişi" olduğu bildirilir. Ərazidəki 5 Aryan kəndində təxminən 2-4 min nəfər insan yaşayır. Qəbilə Hindistan və Pakistan ölkələri arasındakı Kəşmir savaşına görə aralıqda qalıb və demək olar ki, ətrafla bütün əlaqələri kəsilib. Bu təcrid olunmuş həyat onların genefondlarının dəyişməz qalmasına səbəb olub. Broqpa xalqının mənşəyi haqqında müxtəlif nəzəriyyələr var.

*(Davamı səh: 15-də)*

# Gözlənilməz oldu

Zooparkın sahibi nəhəng pitonun hücumuna məruz qalıb





**ABŞ-ın Kaliforniya ştatındakı "Sürünənlər Zooparkı"nın sahibi Jay Brewer, nəhəng bir pitonun hücumuna məruz qalıb. Pitonun yumurtalarını almaq istəyən Brewer, gözlənilməz bir halla qarşılaşıb.**

J.Brewer nəhəng pitonun yumurtalarının bir qismini anbar üçün yığmağa çalışan zaman piton ona hücum edib. Brewerin təqribən iki milyon yarım izləyicisi adamın paylaşdığı görüntülərdən sözün əsl mənasında dəhşətə gəlib.

Onun instagram hesabında paylaşdığı görüntülərdə heyvanın dişləri açıq bir şəkildə sürətlə ona doğru gəldiyi görünür. Jay ilanın hücumundan gücnən qurtularaq kameraya baxıb. Qeyd edək ki, pitonlar zəhərli olmasa da, inanılmaz dərəcədə güclüdürlər. Onlar ölümcül bir güclə hücum edirlər. Hücum etdikləri zaman isə qurbanlarını öldürürlər.

**Şəkli instagrama yükləyən Jay Brewer deyib ki, onun əlindən güclə qurtulub:** "Bu ilanın nadinc olduğunu əvvəlcədən qeyd etmişdim. Doğrudan da elədi. Əlindən güclə qurtuldum. Bir neçə yaxşı yumurtanı xilas etməyə çalışdığımı bilmədiyi üçün mənə hücum etdi. Əgər yumurtaları oradan almasam çürüyəcəkdi. Körpələri xilas etmək üçün riskə getməyə hazıram". 700 mindən çox izlənən görüntülərə minlərlə insan rəy bildirib. İzləyicilər "ürəyimiz ağzımıza gəldi" kimi ifadələrlə qorxduqlarını açıqlayıblar.

**Aytac Ali**

# Sorğunun nəticələri elan olundu

Qadınların əksəriyyəti 40 yaşından sonra Cennifer kimi görünmək istəyir



**Dünyada 40 yaş üzərində olub görünüşü ən çox bəyənilən adamın Cennifer Lopez olduğu məlum olub.**

40 yaşını keçdikdən sonra hansı məşhura bənzəmək istəyərsiniz? Sizi bilmirik, amma təşkil edilən bir anketdə, 40 yaşını geridə buraxan qadınların hazırda 51 yaşında olan iki uşaq anası Cennifer Lopezə bənzəmək istədiyi ortaya çıxıb. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, İngiltərədə bir sorğunun nəticələrinə görə, iştirakçıların yüzdə 38 faizi son dövrdə nişanlısı Aleks Rodrigezlə enişli-yoxuşlu həyat sürən Lopezə bənzəməkdən xoşbəxtlik duya biləcəklərini ifadə edib. Qadınlar arasında siyahının ikinci pilləsində 52 yaşlı aktrisa Jennifer Aniston var. Onun kimi görünmək istəyənlərin nisbəti isə yüzdə 34 faizdir.

**Turan**